STAY CLEAN

AMADA

AZƏRBAYCAN MİLLİ ANTİDOPİNQ AGENTLİYİ

# 2025 İLLİK HESABAT



Düzgün aparılan siyasət idmanın inkişafını şərtləndirir və gəncləri idmanla məşğul olmağa daha da həvəsləndirir. Bu da çox önəmlidir. Çünki sağlam gənc nəsil yetişməsə, idman uğurlarını əldə etmək mümkün olmayacaq. Sağlam gənc nəsil, ilk növbədə, ölkənin gələcək inkişafı üçün lazımdır ki, Azərbaycan əhalisi, Azərbaycan vətəndaşları fiziki cəhətdən sağlam olsunlar. Eyni zamanda, uşaqlıqdan idmana göstərilən maraq əlbəttə ki, gələcəkdə idman uğurlarına yol açır.

**İlham Əliyev** | Azərbaycan Respublikasının Prezidenti

# ABBREVİATURA

| | |
|---|---|
| **ADAMS** | — Antidopinq İdarəetmə və Məlumat Sistemi |
| **ADEL Platforması** | — Antidopinq Təhsil və Öyrənmə Platforması |
| **AMADA** | — Azərbaycan Milli Antidopinq Agentliyi |
| **AQP** | — Antidopinq Qayda Pozuntusu |
| **ASA** | — Azərbaycan İdman Akademiyası |
| **ATF** | — Atypical Finding (Atipik Nəticə) |
| **AZƏRTAC** | — Azərbaycan Dövlət İnformasiya Agentliyi |
| **CAHAMA** | — Ümumdünya Antidoping Agentliyi üzrə Ad Hoc Avropa Komitəsi |
| **CoE** | — Avropa Şurası (Council of Europe) |
| **DNİ** | — Dopinq Nəzarəti İnspektoru |
| **ESD** | — Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsi |
| **ISO** | — Beynəlxalq Standartlaşdırma Təşkilatı |
| **ITA** | — Beynəlxalq Test Agentliyi |
| **İBP** | — İdmançı Bioloji Pasportu |
| **iNADO** | — Milli Antidopinq Təşkilatları İnstitutu |
| **KİV** | — Kütləvi informasiya vasitələri |
| **LTUNADO** | — Litva Antidopinq Agentliyi |
| **NADA Austria** | — Avstriya Milli Antidopinq Agentliyi |
| **NADA Germany** | — Almaniya Milli Antidopinq Agentliyi |
| **POLADA** | — Polşa Antidopinq Agentliyi |
| **QTQ** | — Qeydiyyata Alınmış Test Qrupu |
| **TBP** | — Test Bölüşdürmə Planı |
| **T-DO** | — Avropa Şurasının Antidopinq Konvensiyası üzrə Monitorinq Qrupu |
| **T-DO COMP** | — Avropa Şurasının Antidopinq Konvensiyasının Uyğunluq üzrə Məsləhətçi Qrupu |
| **T-DO ED** | — Avropa Şurasının Antidopinq Konvensiyasının Təhsil üzrə Məsləhətçi Qrupu |
| **T-DO GEMA** | — Avropa Şurasının Antidopinq Konvensiyasının Gender bərabərliyinin antidopinq siyasətinə inteqrasiyası üzrə işçi qrupu |
| **T-DO SCI** | — Avropa Şurasının Antidopinq Konvensiyasının Elm üzrə Məsləhətçi Qrupu |
| **Tİİ** | — Terapevtik İstifadə üçün İstisnalar |
| **UKAD** | — Birləşmiş Krallıq Antidopinq Agentliyi |
| **UNESCO** | — Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı |
| **WADA** | — Ümumdünya Antidopinq Agentliyi |

# MÜNDƏRİCAT


| | |
|---|---|
| 5 | AMADA-nın HÜQUQİ ƏSASLARI, FUNKSİYALARI VƏ STRUKTURU |
| 7 | ÖN SÖZ |
| 8 | İCMAL |
| 11 | MÜŞAHİDƏ ŞURASI |
| 13 | İDMANÇILAR MƏSLƏHƏTÇİ KOMİSSİYASI |
| 14 | MÜSTƏQİL KOMİTƏLƏR |
| 15 | TESTETMƏ |
| 21 | NƏTİCƏLƏRİN EMALI VƏ TƏHQİQAT |
| 32 | ELM, TİBB VƏ TƏHSİL |
| 42 | MEDİA VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR |
| 51 | İNFORMASİYA TEXNOLOGİYALARI VƏ TƏHLÜKƏSİZLİYİ |
| 57 | BEYNƏLXALQ FƏALİYYƏT VƏ ƏMƏKDAŞLIQ |
| 65 | KORPORATİV SOSİAL MƏSULİYYƏT |
| 66 | KEYFİYYƏTİN TƏMİN EDİLMƏSİ |

# AMADA-nın HÜQUQİ ƏSASLARI VƏ FUNKSİYALARI

## Haqqında

✓ 14 dekabr 2016-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə yaradılmışdır

✓ 21 dekabr 2016-ci il tarixində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən təsis edilmişdir. 23 dekabr 2016-cı il tarixində dövlət qeydiyyatına alınmışdır

- Ümumdünya Antidopinq Məcəlləsinə (Məcəllə) tərəfdar çıxan təşkilat
- Publik hüquqi şəxs
- Maliyyə müstəqilliyi

## Hüquqi əsaslar

✓ Avropa Şurasının Antidopinq Konvensiyası

✓ UNESCO-nun "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiyası

✓ 29 noyabr 2016-ci il tarixli 447-VQ nömrəli "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azarbaycan Respublikasının Qanunu

✓ Ümumdünya Antidopinq Məcəlləsi və beynəlxalq standartlar

✓ Azərbaycan Milli Antidopinq Qaydaları

## Funksiyalar

✓ ölkə ərazisində antidopinq siyasətini tətbiq etmək;

✓ dopinq nəzarəti testlərini keçirərək və təhqiqatlar apararaq idman subyektlərini monitorinq etmək;

✓ pozuntu faktları aşkarlandıqda müvafiq şəxsləri məsuliyyətə cəlb etmək;

✓ preventiv və maarifləndirmə tədbirlərini həyata keçirmək;

✓ dopinq və onların qanunsuz dövriyyəsi ilə mübarizə istiqamətlərini müəyyən etmək;

✓ antidopinq sahəsində beynəlxalq münasibətlər qurmaq və əməkdaşlıq etmək;

✓ Azərbaycan Respublikasının antidopinq sahəsində tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına riayət etmək.

# AMADA-nın STRUKTURU



# ÖN SÖZ



**Əziz həmkarlar və tərəfdaşlar,**

2025-ci il ərzində Müşahidə Şurası qarşısına Agentliyin fəaliyyətinə effektiv nəzarəti təmin etmək, idarəetmə və maliyyə hesabatlılığını gücləndirmək, eləcə də strateji yanaşmanın formalaşdırılması istiqamətində ardıcıl fəaliyyət göstərməyi özünə məqsəd qoymuşdur. Şura tərəfindən qəbul edilən qərarlar Agentliyin davamlı inkişafı üçün əsasların möhkəmləndirilməsinə yönəldilmişdir.

Hesabat ili ərzində Şura korporativ idarəetmə standartlarının tətbiqini davam etdirmək, şəffaflıq və hesabatlılıq prinsiplərini gücləndirmək və beynəlxalq standartlara uyğun nəzarət mexanizmlərinin qurulmasına xüsusi diqqət yetirmişdir. Eyni zamanda, Agentliyin gələcək inkişafına istiqamət verəcək strateji prioritetlər müəyyən edilmişdir.

Bu prioritetlər əsas antidopinq fəaliyyətinin gücləndirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, təmiz idman mədəniyyətinin təbliğ edilməsi, maliyyə resurslarının səmərəli istifadəsi və korporativ idarəetmənin təkmilləşdirilməsini əhatə edir. Agentliyin fəaliyyətinin uzunmüddətli davamlılığını möhkəmləndirərək, nəticədə əsas məqsədimiz — idmançılarımızın ədalətli və sağlam mühitdə yetişməsini təmin etməkdir.

Formalaşdırıcı mərhələdə göstərdikləri əzmkarlığa və səylərinə görə Şura üzvlərinə, İcraçı direktor və bütün əməkdaşlara dərin təşəkkürümü bildirirəm. Azərbaycanda idman ədalətinin və dopinqsiz mühitin möhkəmləndirilməsinə töhfə vermək hamımız üçün böyük şərəfdir.

**Nigar Arpadarai** | AMADA-nın Müşahidə Şurasının Sədri



2025-ci il Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) üçün institusional inkişafın, qlobal əməkdaşlığın və təmiz idman prinsiplərinin təşviqinin daha da gücləndiyi mühüm bir mərhələ olmuşdur. Hesabat dövrü ərzində əsas prioritetimiz idmanda ədalətli rəqabət mühitinin qorunması ilə yanaşı, hər bir idmançının sağlamlığının, hüquqlarının və təhlükəsizliyinin yüksək səviyyədə müdafiəsi təşkil etmişdir. Antidopinq fəaliyyəti yalnız qaydaların və sanksiyaların tətbiqi deyil, həm də idmançıların fiziki və psixoloji rifahının qorunmasına, cəmiyyətin sağlam gələcəyinə xidmət edən mühüm bir ictimai sağlamlıq və dürüstlük missiyasıdır.

AMADA 2025-ci ildə Ümumdünya Antidopinq Məcəlləsi və beynəlxalq standartlara tam uyğun fəaliyyətini uğurla davam etdirərək testetmə, nəticələrin idarə olunması, təhsil və maarifləndirmə istiqamətlərində ciddi nailiyyətlər əldə etmişdir. Risk əsaslı yanaşmaların tətbiqi, məlumat analitikası və innovativ texnologiyaların istifadəsi bütövlükdə milli antidopinq sisteminin effektivliyini daha da artırmışdır. Xüsusilə, Agentliyin məlumat infrastrukturunun rəqəmsal transformasiyası, fəaliyyətin avtomatlaşdırılmasına keçid rəqəmsal dayanıqlığımızı yeni mərhələyə daşımışdır. Bununla yanaşı, idmançılar, məşqçilər və federasiyalarla aparılan genişmiqyaslı preventiv maarifləndirmə işləri ölkəmizdə təmiz idman mədəniyyətinin formalaşdırılmasına mühüm töhfə vermişdir.

Hesabat ili ərzində beynəlxalq tərəfdaşlarla əməkdaşlığın coğrafiyasının genişləndirilməsi, yeni strateji tərəfdaşlıq platformalarının qurulması AMADA-nın qlobal miqyasda nüfuzunu daha da gücləndirmişdir. Eyni zamanda, nümayəndəmizin Avropa Şurasının gender bərabərliyi üzrə antidopinq işçi qrupuna rəhbərlik etməsi Agentliyimizin beynəlxalq antidopinq ailəsindəki etibarlı və lider mövqeyinin növbəti göstəricisi olmuşdur. Biz antidopinq hərəkatını sadəcə hüquqi nəzarət mexanizmi kimi deyil, həmçinin dürüstlük, etika və insan ləyaqətinə əsaslanan bəşəri dəyərlər sistemi kimi qəbul edirik.

Bu hesabat, 2025-ci il ərzində qazanılan uğurları əks etdirməklə bərabər, həm də AMADA-nın 2026–2030-cu illəri əhatə edən yeni strateji inkişaf dövrünün yol xəritəsidir. Qarşıdakı dövrdə də əsas hədəfimiz idmançılar üçün tam təhlükəsiz, şəffaf və ədalətli mühit yaratmaq, cəmiyyətdə təmiz idman dəyərlərini daha geniş təşviq etmək və Azərbaycanı qlobal antidopinq sisteminin qabaqcıl tərəfdaşlarından biri kimi saxlamaqdır.
Bu mühüm missiyanın həyata keçirilməsində bizə yaxından dəstək göstərən dövlət qurumlarına, beynəlxalq tərəfdaşlarımıza, idman federasiyalarına, hüquqlarını qorumaq üçün çalışdığımız idmançılarımıza və bu uğurların arxasında dayanan peşəkar AMADA komandasına dərin təşəkkürümü bildirirəm. Əminəm ki, ortaq məsuliyyət ruhu ilə təmiz və sağlam idman mühitinin qorunmasına bundan sonra da mühüm töhfələr verəcəyik.

**Təhminə Tağı-zadə** | AMADA-nın İcraçı direktoru

# İCMAL

## Bizim missiyamız

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) ölkədə antidopinq siyasətini həyata keçirən yeganə müstəqil qurumdur. Agentliyin əsas missiyası təmiz idmanı qorumaq, idmanda ədaləti və bərabərliyi təmin etmək, eləcə də bütün maraqlı tərəflər üçün etibarlı və peşəkar tərəfdaş kimi fəaliyyət göstərməkdir. Bu məqsədlərə risk əsaslı testetmə proqramlarının həyata keçirilməsi, nəticələrin effektiv idarə olunması, təhqiqat fəaliyyətinin gücləndirilməsi, maarifləndirmə və təhsil təşəbbüslərinin genişləndirilməsi, eləcə də müasir rəqəmsal və analitik texnologiyaların tətbiqi vasitəsilə nail olunur.

AMADA-nın fəaliyyəti Ümumdünya Antidopinq Məcəlləsi, Beynəlxalq Standartlar, Avropa Şurasının Antidopinq Konvensiyası və UNESCO-nun müvafiq çərçivə sənədlərinə tam uyğun şəkildə həyata keçirilir. Eyni zamanda, Agentlik “Azərbaycan 2030: Milli Prioritetlər” sənədində müəyyən edilmiş sağlamlıq, şəffaflıq, innovasiya və institusional inkişaf məqsədlərinə töhfə verir.

## Strateji istiqamətlər

AMADA-nın strateji fəaliyyəti antidopinq sisteminin institusional dayanıqlığını gücləndirmək və beynəlxalq standartlara tam uyğunluğu təmin etmək məqsədilə aşağıdakı əsas istiqamətləri əhatə edir:

**Əsas antidopinq fəaliyyətinin gücləndirilməsi**
Test proseslərinin qabaqcıl texnologiyalar, maarifləndirmə proqramları və beynəlxalq əməkdaşlıq vasitəsilə daha effektiv və məqsədyönlü şəkildə təşkili.

**Qlobal tərəfdaşlığın gücləndirilməsi**
WADA və digər antidopinq qurumları ilə əməkdaşlığın genişləndirilməsi, resurs və bilik mübadiləsinin gücləndirilməsi.

**Təmiz idman mədəniyyətinin təşviqi**
Ədalət, hörmət və şəffaflıq dəyərlərinin idmanda təşviq edilməsi, idmançıların, məşqçilərin və idman təşkilatlarının təmiz idman prinsiplərinə daha fəal cəlb olunması.

**Maliyyə resurslarından səmərəli istifadə**
Büdcə vəsaitlərinin effektiv idarə olunması, maliyyə nəzarətinin gücləndirilməsi və resursların prioritet istiqamətlərə yönəldilməsi.

**Korporativ idarəetmə və şəffaflığın gücləndirilməsi**
Şəffaf qərarqəbuletmə, aydın idarəetmə strukturu, müntəzəm hesabatlılıq və məsuliyyət mədəniyyətinin inkişaf etdirilməsi.

# Əsas nəticələr və nailiyyətlər

2025-ci il AMADA üçün institusional güclənmə, beynəlxalq inteqrasiya və fəaliyyətin keyfiyyət göstəricilərinin əhəmiyyətli dərəcədə yüksəldiyi bir dövr olmuşdur.

## Testetmə

İl ərzində **1291 sidik** və **165 qan** nümunəsi toplanmış, İdmançı Bioloji Pasportu proqramı vasitəsilə hematoloji monitorinq gücləndirilmişdir. Test Bölüşdürmə Planına uyğun olaraq, **1100 milli test** həyata keçirilmiş, əlavə olaraq beynəlxalq sifarişlər əsasında testlər aparılmışdır.

## Nəticələrin emalı və təhqiqat

2025-ci ildə **19 yeni antidopinq qayda pozuntusu** üzrə iş başlanmış, ümumilikdə, **22 iş üzrə icraat yekunlaşdırılmışdır**. Bunlardan **17-si** üzrə sanksiya tətbiq edilmişdir. İl ərzində **73** məlumat əsasında təhqiqat aparılmış, antidopinq qayda pozuntularının qarşısının alınması və aşkarlanması üzrə institusional mexanizmlər gücləndirilmişdir.

## Elm, tibb və təhsil

İl ərzində **106 antidopinq təhsil və maarifləndirmə** tədbiri keçirilmiş, ümumilikdə **4 292 nəfər** antidopinq təhsilinə cəlb edilmişdir. ADEL platforması vasitəsilə onlayn təhsil genişləndirilmiş, tibbi istiqamətdə **14 terapevtik** istifadə üçün istisna müraciəti və **103 dərman preparatı** üzrə sorğu emal edilmişdir.

## Media və ictimaiyyətlə əlaqələr

İl ərzində **36 press-reliz** yayımlanmış, sosial mediada **248 paylaşım** edilmiş və antidopinq üzrə maarifləndirmə fəaliyyəti, ümumilikdə, **1,489,857 nəfəri əhatə etmişdir**. Bu da **ölkə əhalisinin 14,5 faizini** təşkil edir. Bu göstərici antidopinq dəyərlərinin cəmiyyətə çatdırılması istiqamətində mühüm nailiyyət olmuşdur.

## İnformasiya texnologiyaları və rəqəmsal transformasiya

**Antidopinq Məlumat Sisteminin** yaradılmasına başlanılmış, maliyyə, insan resursları və anbar əməliyyatları avtomatlaşdırılmış, Agentliyin məlumatlarının təhlükəsiz saxlanılması məqsədilə **Hökumət Buludu** platformasına keçid həyata keçirilmişdir.

## Beynəlxalq əməkdaşlıq və liderlik

AMADA 2025-ci ildə WADA, Avropa Şurası, iNADO və digər beynəlxalq təşkilatların əsas platformalarında fəal iştirak etmiş, Polşa, Litva və Avstriya antidopinq agentlikləri ilə əməkdaşlıq memorandumları imzalamışdır. Xüsusilə AMADA nümayəndəsinin Avropa Şurasının **gender bərabərliyi** üzrə antidopinq işçi qrupuna rəhbərlik etməsi Agentliyin beynəlxalq səviyyədə liderlik mövqeyini nümayiş etdirmişdir.

## Gələcəyə baxış

AMADA gələcək fəaliyyətində institusional inkişafı davam etdirməyi, innovativ texnologiyaların tətbiqini genişləndirməyi, beynəlxalq əməkdaşlığı gücləndirməyi və antidopinq siyasətinin effektivliyini daha da artırmağı qarşısına məqsəd qoyur. Agentlik idmançılar üçün təhlükəsiz, ədalətli və şəffaf idman mühitinin təmin edilməsini əsas prioritet kimi müəyyən etmişdir.

Strateji məqsəd AMADA-nın regional və beynəlxalq səviyyədə qabaqcıl antidopinq qurumlarından biri kimi mövqeyini daha da möhkəmləndirmək və təmiz idman prinsiplərinin davamlı şəkildə qorunmasına töhfə verməkdir.

## Strategiya

Azərbaycan Milli Antidopinq Agentliyinin strateji fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində müəyyən olunmuş uzunmüddətli inkişaf məqsədlərinə, həmçinin Ümumdünya Antidopinq Məcəlləsinə, beynəlxalq standartlara və ölkənin beynəlxalq öhdəliklərinə uyğun olaraq formalaşdırılmışdır. Bu strateji yanaşma təmiz idmanın qorunması, idmançıların sağlamlığının və hüquqlarının təmin edilməsi, antidopinq sisteminin dayanıqlılığının artırılması və Azərbaycanın beynəlxalq idman məkanında etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmləndirilməsinə xidmət edir.

2026–2030-cu illəri əhatə edən yeni strateji dövr AMADA-nın fəaliyyətinin növbəti inkişaf mərhələsini müəyyən edir və institusional idarəetmənin gücləndirilməsi, risk əsaslı və məlumatyönümlü antidopinq fəaliyyətinin tətbiqi, rəqəmsal transformasiya və innovativ texnologiyaların geniş istifadəsi, eləcə də preventiv və maarifləndirici fəaliyyətlərin daha da genişləndirilməsi kimi prioritet istiqamətləri əhatə edir. Strategiya antidopinq fəaliyyətinin yalnız nəzarət və sanksiya mexanizmi kimi deyil, həm də idmanda dürüstlük mədəniyyətinin formalaşdırılmasına yönəlmiş kompleks və sistemli yanaşma əsasında həyata keçirilməsini nəzərdə tutur.

Bununla yanaşı, strategiya Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğunluq təşkil edərək sağlam həyat tərzinin təşviqi, keyfiyyətli təhsilin inkişafı, şəffaf və hesabatlı institutların gücləndirilməsi, eləcə də innovasiya və rəqəmsal transformasiyanın təşviqinə töhfə verir. Bu yanaşma antidopinq sisteminin dayanıqlılığını təmin etməklə yanaşı, idman sahəsində institusional etimadın möhkəmləndirilməsinə və beynəlxalq əməkdaşlığın daha da inkişafına imkan yaradır.

AMADA-nın strateji baxışı 2030-cu ilə qədər Agentliyin rəqəmsallaşdırılmış, risklərə qarşı dayanıqlı, beynəlxalq standartlara tam uyğun və innovativ yanaşmalardan istifadə edən müasir antidopinq təşkilatına çevrilməsini nəzərdə tutur. Bu çərçivədə antidopinq fəaliyyətinin məlumat əsaslı idarə olunması, süni intellekt və analitik alətlərin mərhələli tətbiqi, informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair bazanın müasir çağırışlara uyğun olaraq təkmilləşdirilməsi, preventiv və təhsil proqramlarının genişləndirilməsi, federasiyalar və digər maraqlı tərəflərlə əməkdaşlığın gücləndirilməsi, eləcə də institusional idarəetmənin effektivliyinin artırılması əsas strateji hədəflər kimi müəyyən edilmişdir.

Beləliklə, AMADA-nın strategiyası antidopinq sisteminin davamlı inkişafını təmin edən, milli prioritetlərlə beynəlxalq standartları uzlaşdıran və idmanda dürüstlük, şəffaflıq və innovasiya prinsiplərinə əsaslanan uzunmüddətli strateji çərçivə kimi çıxış edir. Bu strategiya Agentliyin həm milli, həm də beynəlxalq səviyyədə aparıcı antidopinq qurumu kimi mövqeyini daha da gücləndirməyə yönəlmişdir.

# MÜŞAHİDƏ ŞURASI

**Nigar Arpadarai**

**Müşahidə Şurasının sədri,** Azərbaycan Respublikasının Milli Məclisinin deputatı

**Samir Nuriyev**

**Müşahidə Şurasının sədr müavini,** hüquqşünas

**Şahin Bayramov**

**Audit komitəsinin sədri,** Qarabağ Universitetinin rektoru

**İnarə Ağabalayeva**

**Üzv,** həkim-toksikoloq

**Namiq Məmmədov**

**Üzv,** farmakoloq

# Müşahidə Şurasının fəaliyyəti

Hesabat dövründə Müşahidə Şurası strateji rəhbərlik, maliyyə nəzarəti və korporativ idarəetmə sahələrində Agentliyin uzunmüddətli inkişafı üçün etibarlı və dayanıqlı təməl yaratmağı əsas məqsəd olaraq müəyyən etmişdir.

**Müşahidə Şurasının əsas öhdəlikləri**

- Agentliyin strateji inkişaf istiqamətlərini müəyyən etmək
- Agentliyin maliyyə planlaşdırmasını təsdiq etmək və maliyyə idarəçiliyi üzərində daimi nəzarəti həyata keçirmək
- Agentliyin fəaliyyətinə dair daimi hesabatlılığı təmin etmək









## Əsas fəaliyyət istiqamətləri və nəticələr

**Korporativ idarəetmənin gücləndirilməsi:**
Şura idarəetmə standartlarının davamlı tətbiqinə əsas diqqət yetirmiş, şəffaf, hesabatlı və etik qərarvermə prinsiplərini idarəetmə proseslərinin əsasına qoymuşdur. Qərarların icrasını asanlaşdırmaq məqsədilə qabaqcıl mexanizmlər tətbiq edilmiş və qərarvermə prosesləri şəffaf və sənədləşdirilmiş şəkildə aparılmışdır.

**Maliyyə şəffaflığının təmin edilməsi:**
Büdcənin icrası və maliyyə göstəriciləri müntəzəm olaraq nəzərdən keçirilmiş, maliyyə hesabatlılığı sisteminin etibarlılığının artırılması istiqamətində işlər görülmüşdür. Audit Komitəsi maliyyə və hesabatlılıq sənədlərini ətraflı təhlil etmiş, potensial riskləri müəyyən etmiş və Şuraya idarəetmənin səmərəliliyini və şəffaflığını artırmaq üçün tövsiyələr təqdim etmişdir.

**Strateji planlaşdırma:**
Şura Agentliyin gələcək inkişafını istiqamətləndirən strateji prioritetləri müəyyən etmişdir. Bunlar anti-dopinq fəaliyyətinin gücləndirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, təmiz idman dəyərlərinin təşviqi, maliyyə səmərəliliyi və korporativ idarəetmənin gücləndirilməsini əhatə edir.

| | |
|---|---|
| **5** Müşahidə Şurasının görüşü | **1** Audit Komitəsinin görüşü |

# İDMANÇILAR MƏSLƏHƏTÇİ KOMİSSİYASI

AMADA idmançıların fikirlərinə xüsusi əhəmiyyət verir və öz fəaliyyətində bunu nəzərə alır. AMADA üçün idmançıların dopinqlə mübarizəyə qatılması, onların əməkdaşlığa cəlb edilməsi və onlara bərabər imkanların təmin edilməsi əhəmiyyətlidir.

Bunu nəzərə alaraq 2019-cu ildə AMADA özünün idmançı ictimaiyyəti ilə əməkdaşlığının artırılması üzrə davam edən səylərinin bir nümunəsi kimi İdmançılar Məsləhətçi Komissiyasını yaratmışdır. Onun vəzifəsi AMADA-nın fəaliyyətinin müxtəlif aspektlərini müzakirə etmək və tövsiyələr hazırlamaqdır.

Komissiya sadəcə olaraq idmançıların təmsil edildiyi qurum deyil, o, həmçinin AMADA-ya təmiz idmanın gələcək inkişafı və təşviqi üzrə atılan addımlara dair məsləhət verən mühüm qurumdur.

## AMADA İdmançılar Məsləhətçi Komissiyası

**İlham Zəkiyev (sədr)**
Paracüdo

**Nazim Babayev**
Atletika

**Hacı Əliyev**
Güləş

**Ayan Xankişiyeva**
Velosiped

**Rəsul Çunayev**
Güləş

**Kamran Şahsuvarlı**
Boks

**Fəridə Əliyeva**
Karate

**Rüstəm Orucov**
Cüdo

**Fuad Qurbanov**
Atıcılıq

**Ruslan Abışov**
Futbol

**Aynur Məmmədova**
Parataekvondo

# MÜSTƏQİL KOMİTƏLƏR

“İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 447-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 dekabr tarixli 1158 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 21 fevral 2023-cü il tarixli 2040 nömrəli Fərmanına əsasən, Terapevtik İstifadəyə İcazə, İntizam və Apellyasiya Komitələrinin təşkili **Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə** həvalə edilmişdir. Buna uyğun olaraq, Azərbaycan Respublikası səhiyyə nazirinin 08 aprel 2024-cü il tarixli, 3-28/3-1 -130/2024 saylı əmri ilə Terapevtik İstifadəyə İcazə, İntizam və Apellyasiya Komitələrinin Əsasnamələri təsdiq edilmiş və tərkibləri müəyyən edilmişdir.

## İntizam Komitəsi

7 üzv

Məqsəd - antidopinq qayda pozuntuları üzrə işlərə baxılması və mahiyyəti üzrə qərar qəbul edilməsi

Sədr – Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Tibbi Xidməti İdarəsinin rəis müavini, **Əfəndiyev İsmayıl Namiq oğlu**

Baxılan işlərin sayı: **3**

## Terapevtik İstifadəyə İcazə Komitəsi

7 üzv

Məqsəd - dopinq vasitələrinin və üsullarının terapevtik məqsədlərlə istifadə edilməsinə icazənin verilməsi

Sədr – Bakı şəhər Narkoloji Dispanserin direktoru, **Məmmədov Qalib Adil oğlu**

Baxılan işlərin sayı: **8**

## Apellyasiya Komitəsi

7 üzv

Məqsəd - antidopinq qayda pozuntuları və terapevtik istifadəyə icazə ilə bağlı şikayətlərə baxılması və yekun qərar qəbul edilməsi

Sədr – Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsinin dekanı, **Mədətli Fərəh İlham qızı**

Baxılan işlərin sayı: **4**



# TESTETMƏ

2025-ci il ərzində beynəlxalq antidopinq qaydalarına uyğun olaraq testlərin həyata keçirilməsi, risklərin qiymətləndirilməsi və Test Bölüşdürmə Planının (TBP) icrası istiqamətində genişmiqyaslı fəaliyyət görülmüşdür. İl boyunca testlərin daha effektiv planlaşdırılmasını təmin etmək məqsədilə müxtəlif idman növləri üzrə risk dəyərləndirmələri aparılmış, Olimpiya, Paralimpiya və qeyri-Olimpiya idman növlərini əhatə edən test proqramı uğurla icra edilmişdir.

# Test Bölüşdürmə Planı və testlərin aparılması

Testlərin səmərəli və mütənasib bölüşdürülməsi məqsədilə TBP hazırlanmış, yarış və yarışdan kənar testlər icra olunmuşdur.

**2025-ci il ərzində**
**1100 Test**

**479** Yarış müddətində

**621** Yarışdan kənar

İl ərzində 1100 test həyata keçirilmişdir ki, bunlardan 479-u yarış müddətində, 621-i isə yarışdan kənar testlər olmuşdur. Testlərin bölgüsü müxtəlif idman növlərinə əsasan həyata keçirilmiş və prioritet idman növləri müəyyən edilmişdir.

- Atletika
- Gimnastika
- Velosiped idmanı
- Üzgüçülük
- Boks
- Cüdo
- Karate
- Ağır atletika
- Güləş
- Taekvondo

- Paralimpiya və qeyri-Olimpiya idman növləri üzrə testlər də mütəmadi olaraq həyata keçirilmişdir.

**26** İdman Növü

**43** Alt İdman Növü

**1456** Ümumi Nümunə Sayı

**1291** Sidik

**108** Qan

**57** İBP

## Milli və beynəlxalq çempionatlarda testlər

AMADA 2025-ci il ərzində Azərbaycan çempionatları və digər milli idman yarışlarında test proqramını həyata keçirmişdir. Bu çərçivədə atletika, üzgüçülük, güləş, cüdo, voleybol, basketbol, taekvondo, stolüstü tennis, karate və digər idman növləri üzrə milli çempionatlarda dopinq nəzarəti aparılmışdır.

Beynəlxalq əməkdaşlıq çərçivəsində AMADA beynəlxalq federasiyalar və testetmə təşkilatlarının sifarişi ilə dopinq nəzarəti testləri həyata keçirmişdir. 2025-ci ildə Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq yarışlarda – cüdo üzrə “Böyük dəbilqə” turniri, III MDB Oyunları, qol güləşi üzrə dünya çempionatı və digər yarışlarda nümunə toplama prosesi uğurla icra olunmuşdur.

## Testlərin bölgüsü




**14 Nəfər**
**Nümunə Toplama Heyəti**



**Nümunə toplama heyəti ilə görüş**

# Testetmə həyata keçirilmiş milli yarışların siyahısı

- **10.01** Yeniyetmələr, gənclər və böyüklər arasında sambo üzrə Azərbaycan çempionatı
- **11.01** Atletika üzrə Bakı qış çempionatı
- **24.01** “Şamaxı” – “Zirə” futbol oyunu
- **25.01** Ağırlıqqaldırma üzrə Azərbaycan çempionatı
- **25.01** Atletika üzrə Bakı qış çempionatı (2008-2009-cu illər təvəllüdlü idmançılar)
- **31.01** Atletika üzrə Azərbaycan çempionatı
- **07.02** Kamandan oxatma üzrə Azərbaycan çempionatı
- **11.02** Yunan-Roma və sərbəst güləş üzrə U-20 ölkə çempionatı
- **26.02** “Neftçi” – “Abşeron” basketbol oyunu
- **10.04** “Şuşa” – U-19 futzal oyunu
- **11.04** “Səbail” – “Qarabağ” futbol oyunu
- **03.05** Stolüstü tennis üzrə U-15 və U-19 ölkə çempionatı
- **08.05** Aerobika gimnastikası üzrə 9-cu Azərbaycan çempionatı, Aerobika gimnastikası üzrə Bakı çempionatı
- **17.05** Stolüstü tennis üzrə Azərbaycan çempionatı
- **17.05** “Azəryol” – “Kür” həndbol oyunu
- **06.06** Atletika üzrə 96-cı yay Azərbaycan çempionatı
- **18.06** Stend atıcılığının skit növü üzrə federasiya kuboku yarışları
- **28.06** Gənclər arasında ağırlıqqaldırma üzrə Azərbaycan çempionatı
- **29.06** Gənclər arasında kikboksinq üzrə Azərbaycan çempionatı
- **30.06** Velosiped idmanı üzrə Azərbaycan çempionatı
- **30.07** Velosiped idmanı üzrə Azərbaycan çempionatı
- **19.08** “Zirə” – “Araz-Naxçıvan” futbol oyunu
- **02.09** Avarçəkmə üzrə Azərbaycan çempionatı
- **20.09** “Sabah” – “Turan Tovuz” futbol oyunu
- **11.10** Triatlon üzrə Azərbaycan çempionatı
- **17.10** “Ordu” – “Sərhədçi” basketbol oyunu
- **18.10** “Sumqayıt” – “Karvan Yevlax” futbol oyunu
- **26.10** Kikboksinq üzrə Azərbaycan çempionatı
- **07.11** Yeniyetmə və gənclər arasında karate üzrə 30-cu ölkə birinciliyi
- **04.12** “Abşeron” – NTD basketbol oyunu
- **05.12** Cüdo üzrə Azərbaycan çempionatı
- **06.12** “Xilasedici” – “Azərreyl” voleybol oyunu
- **09.12** “Araz-Naxçıvan” – “Kəpəz” futbol oyunu
- **11.12** “Naxçıvan” – “Sərhədçi” basketbol oyunu
- **12.12** Üzgüçülük üzrə Azərbaycan çempionatı
- **13.12** Aerobika gimnastikası üzrə 9-cu Bakı çempionatı, akrobatika gimnastikası üzrə 30-cu ölkə çempionatı və Bakı birinciliyi
- **19.12** Karate, ənənəvi karate, kyokuşin karate, aşihara karate və koşiki karate üslubları üzrə ölkə birinciliyi və çempionatı
- **22.12** “Ordu” – “Naxçıvan” basketbol oyunu
- **24.12** Gənclər arasında taekvondo üzrə ölkə birinciliyi

# Qeydiyyata Alınmış Test Qrupu (QTQ) və məkan məlumatı idarəçiliyi

**Qeydiyyata alınmış test qrupu (QTQ)** — milli və ya beynəlxalq səviyyəli idmançıların yarışdan kənar müddətdə dopinq nəzarəti prosesinə cəlb olunması üçün məkan məlumatı təqdim etmək öhdəliyi olan xüsusi bir qrupdur. Bu qrupa daxil olan idmançılar ADAMS sistemi vasitəsilə öz yaşayış ünvanlarını, məşq cədvəllərini, yarış/tədbir proqramlarını və ən əsası test üçün əlçatan olan bir saatlıq zaman pəncərəsi təqdim etməlidirlər. QTQ-nin əsas məqsədi bu idmançıların istənilən vaxt test edilə bilməsini təmin etməkdir.

**Məkan məlumatı** — dopinq nəzarəti prosesinin planlaşdırılması və icrası üçün QTQ-yə daxil olan idmançılar tərəfindən təqdim edilən şəxsi və gündəlik məkan məlumatıdır. Bu məlumatlar idmançının dopinq nəzarəti prosesinə əlçatanlığını təmin etmək üçün istifadə olunur.

## Məkan məlumatına aşağıdakılar daxildir:

- Gecələdiyi əsas ünvan
- Məşq, iş və təhsil fəaliyyətlərinin məkan və vaxtı
- Yarış və təlim düşərgələrinin planı
- Dopinq nəzarəti prosesi üçün əlçatan olan bir saatlıq zaman pəncərəsi
- Əlaqə vasitələri: telefon və e-poçt
- Bu məlumatların dəqiq və vaxtında təqdim edilməsi idmançının antidopinq qaydalarına uyğun davranışının əsas göstəricisidir

İdmançıların dopinq nəzarəti prosesinə riayət etməsi üçün AMADA Qeydiyyata Alınmış Test Qrupuna (QTQ) nəzarət etmişdir. 2025-ci ildə QTQ-ya 65 idmançı daxil edilmişdir ki, bunlardan 48-i Olimpiya, 3-i Paralimpiya, 14-i isa qeyri-Olimpiya idman növlərində çıxış etmişdir. Bu idmançılar üçün məkan məlumatı təlimləri keçirilmiş və ADAMS sistemində məlumat yenilənməsi təmin olunmuşdur.

**QTQ**

**65** İdmançı

- **48** Olimpiya növləri
- **3** Paralimpiya növləri
- **14** Qeyri-Olimpiya növləri

**40** Kişi **25** Qadın

# Əhatəli fəaliyyət

21 İyun

## UFC Fight Night

Bakıda keçirilən tədbirdə şəbəkələşmə

28 Sentyabr — 08 Oktyabr

**III MDB Oyunlarında AMADA testetmə və nümunə toplama üzrə yeganə səlahiyyətli qurum**

WADA-nın risklərin qiymətləndirilməsi əsasında xüsusi Test Bölüşdürmə Planı

**125 TEST**

## İxtisasartırma kursları

**PWC Training**
"Training for the Testing Department" təlimində iştirak və imtahan nəticəsində sertifikat əldə etmə

**ITA**
"DCO Foundation" təlimində iştirak və sertifikatla təltif olunma

## Peşəkar inkişaf

- PWC
- ITA
- iNADO
- ADAMS



ITA-nın "DCO Foundation" təlimində iştirak, Lozanna şəhəri



# NƏTİCƏLƏRİN EMALI VƏ TƏHQİQAT

2025-ci il ərzində AMADA tərəfindən antdiopinq qayda pozuntularına qarşı mübarizə çərçivəsində hüquqi nəzarət həyata keçirilməyə davam etmişdir. Bu çərçivədə araşdırma işləri aparılmış, dinləmə qurumlarının üzvləri üçün hüquqi maarifləndirmə tədbirləri həyata keçirilmiş, hüquq-mühafizə orqanları ilə və xarici antidopinq təşkilatları ilə əməkdaşlıq genişləndirilmişdir.

# Antidopinq Qayda Pozuntuları (AQP) üzrə göstəricilər

**19**

**Yeni Antidopinq Qayda Pozuntusu**

**17** AMADA tərəfindən

**2** Xarici ölkələrdə

2025-ci il ərzində AMADA tərəfindən 19 yeni antidopinq qayda pozuntusu barədə iş başladılmışdır. İcraata alınmış işlərin 17-si AMADA-nın öz testetmə və təhqiqat fəaliyyəti nəticəsində aşkar edilmişdir. Xarici ölkələrdə keçirilmiş yarışlarda iştirak edən iki azərbaycanlı idmançı barəsində pozuntu isə Almaniya və Estoniya antidopinq qurumları tərəfindən aşkar edilərək AMADA-ya təhvil verilmişdir. AMADA-nın aşkar etdiyi pozuntulardan biri III MDB oyunlarında iştirak edən belaruslu idmançı ilə əlaqədar olduğundan, AMADA işin araşdırılmasını Belarus antidopinq qurumuna həvalə etmişdir.




### Yeni aşkar edilmiş AQP-lərin faiz nisbəti

- **Maddə 2.1 — 13 pozuntu** Nümunədə qadağan edilmiş maddənin mövcudluğu
- **Maddə 2.2 — 3 pozuntu** Qadağan edilmiş üsul və ya maddədən istifadə
- **Maddə 2.3 — 2 pozuntu** Nümunə təqdim etməkdən imtina
- **Maddə 10.14.3 — 1 pozuntu** İştirak qadağasının pozulması*



**Nümunəsində qadağan edilmiş maddələr aşkar edilmiş idmançıların 92 faizi yarış müddətində; 8 faizi isə yarışdankənar müddətdə test edilmişdir.**

**8%** Yarışdan kənar müddətdə 1

**92%** Yarış müddətində 12

* Diskvalifikasiya edilmiş idmançıların sanksiya müddətində yarışlarda iştirak etməsi tətbiq edilmiş müddətin artırılmasına səbəb olur.

## İcraatların yekun nəticəsi

**22**
**Yekunlaşdırılmış İşlər**

**17** Sanksiya tətbiq edilmişdir

**5** Xitam verilmişdir

2025-ci il ərzində AMADA və Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən Antidopinq Komitələri həm cari ildə aşkar edilmiş, həm də əvvəlki illərdə aşkar edilsə də icraatı 2025-ci ilədək davam edən 22 iş üzrə araşdırmanı yekunlaşdırılmışdır. Həmin işlərin 17-si üzrə idmançılar təqsirli bilinmiş və barələrində diskvalifikasiya tətbiq edilmiş, başlanmış 5 iş isə müxtəlif səbəblərdən (terapevtik istifadə, qayda pozuntusunun sübuta yetirilməməsi və s.) xitam verilmişdir.

**Yekunlaşdırılmış işlərin nəticəsi üzrə bölgü**




**17** Sanksiya

**5** Xitam

**Sanksiya almış idmançıların təqsirli bilindikləri pozuntuların faiz nisbəti**




- **Maddə 2.1 — 12** Nümunədə qadağan edilmiş maddənin mövcudluğu
- **Maddə 2.2 — 2** Qadağan edilmiş maddə və ya üsuldan istifadə
- **Maddə 2.3 — 1** Nümunə təqdim etməkdən imtina
- **Maddə 2.4 — 1** Məkan məlumatı pozuntusu
- **Maddə 2.5 — 1** Dopinq nəzarəti prosesini saxtalaşdırmağa cəhd



AMADA
STAY CLEAN

# İcraatların yekun nəticəsi

## Sanksiya tətbiq edilmiş idman növləri




- Boks — 5
- Güləş — 2
- Kikboksinq — 2
- Qol güləşi — 2
- Basketbol — 1
- Karate — 1
- Atıcılıq — 1
- Pauerliftinq — 1
- Atletika — 1
- Futbol — 1

Sanksiya almış şəxslər aşağıdakı idman növlərindəndir:
Boks – 5; Güləş – 2; Kikboksinq – 2; Qol güləşi – 2; Basketbol, Karate, Atıcılıq, Pauerliftinq, Atletika, Futbol – 1.

## Sanksiya almış idmançıların bölgüsü

### Kateqoriya üzrə bölgü




- Milli səviyyəli — 10
- Beynəlxalq səviyyəli — 5
- Həvəskar idmançı — 1
- Qeyri-idmançı (klub meneceri) — 1

### Cins üzrə bölgü




Sanksiya almış idmançıların 15-i kişi, 2-si qadındır;
onlardan 5-i beynəlxalq səviyyəli, 10-u milli səviyyəli, 1-i həvəskar idmançı, 1-i isə qeyri-idmançıdır (klub meneceri).

## Təhqiqat və məlumat toplama fəaliyyəti

**73**

**Təhqiqat aparılmış məlumat**

2025-ci il ərzində 73 məlumat barədə (atipik nəticələr, uğursuz test cəhdləri, ADAMS-ın monitorinqi nəticəsində aşkar edilmiş məlumat təqdim etməmə və ya natamam məlumat halları, DCF-lərdə aşkar edilmiş vendaxili infuziya və qadağan edilmiş maddə istifadəsi, dopinq nəzarəti prosesinə müdaxilələr, anonim məlumatlar və s.) təhqiqat aparılmışdır. Bundan başqa yeni aşkar edilmiş 19 antidopinq qayda pozuntusunun icraatı çərçivəsində təqdim edilmiş izahat və sübutların araşdırılmasında nəticələrin emalı fəaliyyətinə dəstək göstərilmişdir.

## Təhqiqat fəaliyyətinin digər istiqamətləri

### Qida təhlükəsizliyi

AMADA tərəfindən toplanmış nümunələrdə “boldenon” adlı qadağan edilmiş maddənin artma tendensiyası ilə əlaqədar qida əlavələrinin tərkibində “boldenon” standartının da yoxlanılması barədə Qida Təhlükəsizliyi Agentliyi ilə razılıq əldə edilmişdir.

### Hüquq-mühafizə

Digər hüquq-mühafizə orqanları ilə də əməkdaşlığı genişləndirmək üçün dəyirmi masa təşkil edilmiş və qadağan edilmiş maddələrlə mübarizədə qarşılıqlı əməkdaşlığa dair razılıq əldə olunmuşdur.

### Xarici əməkdaşlıq

Təhqiqat sahəsində xarici əməkdaşlığı genişləndirmək məqsədilə NADA Germany ilə mövcud memorandum çərçivəsində bir neçə görüşlər keçirilmiş və yeni imzalanmış memorandumlar (Polşa, Litva, Avstriya) üzrə əməkdaşlıq sahələrinə təhqiqat fəaliyyəti də daxil edilmişdir.

### Dəyirmi masa

May ayında Almaniyanın Bonn şəhərində antidopinq agentliyi və hüquq mühafizə orqanları arasında keçirilən dəyirmi masada AMADA da təmsil olunmuşdur. Dekabrda Bakıda təşkil edilmiş dəyirmi masada isə WADA, Almaniya, Polşa və "Sportradar" nümayəndələri iştirak etmişdir.

# Hüquq-mühafizə orqanları ilə əməkdaşlıq



## Beynəlxalq Dəyirmi Masa

12.11.2025-ci il tarixində “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı” çərçivəsində icraçı qurumlar və digər aidiyyəti təşkilatların, eləcə də WADA-nın, Almaniya və Polşanın antidopinq təşkilatlarının, “Sportradar” şirkətinin nümayəndələrinin iştirakı ilə “Qadağan edilmiş maddələrlə mübarizədə qurumlararası əməkdaşlığın perspektivləri” adlı dəyirmi masa təşkil edilmişdir. Hüquq mühafizə orqanları ilə sıx əməkdaşlıq barədə razılıq əldə edilmişdir.










# İnstitusional əməkdaşlıq

## Təlim və əməkdaşlıq

Antidopinq Komitələrinin üzvləri üçün Səhiyyə Nazirliyinin təşkilati dəstəyi ilə POLADA-nın mütəxəssisləri tərəfindən antidopinq maarifləndirmə tədbirinin təşkili.









## Yeni antidopinq qanunvericiliyinə AMADA-nın töhfələri

"Nəticələrin Emalı üzrə Beynəlxalq Standart"ın yeni layihəsi (2027) üzrə rəy və təkliflərin hazırlanması üçün Avropa Şurasının Monitorinq Qrupu tərəfindən təşkil edilmiş işçi qrupun tərkibinə AMADA əməkdaşları da dəvətedilmiş və hazırlanmış rəy və təkliflər yekun sənədə daxil edilərək WADA-ya təqdim edilmişdir.



# Beynəlxalq əməkdaşlıq

**WADA:** Məcəlləyə və Standartlara dəyişikliklər çərçivəsində rəy və təkliflər hazırlanaraq təqdim edilmişdir.

Noyabr ayında Bakıda keçirilən dəyirmi masa və beynəlxalq konfransda WADA-nın Təhqiqatlar şöbəsinin müdiri və NADO-larla əlaqələr üzrə meneceri iştirak etmişdirlər.

**Avropa Şurası:** Antidopinq Konvensiyası üzrə Monitorinq Qrupunun (T-DO) və WADA üzrə Ad Hoc Avropa Komitəsinin iclaslarında, eləcə də T-DO Monitorinq Qrupunun Hüquqi işlər (T-DO LI) və Uyğunluq üzrə (T-DO Comp) Məsləhətçi Qruplarının iclaslarında AMADA təmsil edilmişdir.

Bundan başqa, T-DO Monitorinq Qrupunun WADA-nın “Nəticələrin emalı üzrə beynəlxalq standartı”na dəyişikliklər üzrə işçi qrupunun tərkibində rəylər hazırlanmasında iştirak edilmişdir.

**EUDA:** Narkotiklərə qarşı preventiv tədbirlərlə bağlı European Prevention Curriculum adlı 5 günlük online təlimində iştirak edilmiş və sertifikat əldə edilmişdir.

**NADA Austria:** Dekabr ayında NADA Austria ilə AMADA arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

**NADA Germany:** 2024-cü ildə imzalanmış memorandum çərçivəsində təhqiqat və məlumat toplama (Intelligence and Investigation) ilə bağlı Bonn şəhərində 2 görüş keçirilmişdir. Mart ayında keçirilmiş ilk görüşdə Azərbaycanlı idmançı barəsində Almaniya antidopinq qurumu tərəfindən başlanmış AQP işinin AMADA-ya transfer edilməsi barədə razılıq əldə edilmişdir.

May ayında keçirilmiş ikinci görüşdə isə AMADA nümayəndəsi NADA ilə alman hüquq-mühafizə orqanları arasında keçirilən dəyirmi masada iştirak etmişdir.
AMADA tərəfindən təşkil edilmiş noyabrda keçirilmiş dəyirmi masada və beynəlxalq konfransda NADA İcraiyyə Şurasının sədri iştirak etmişdir.

**POLADA:** 2025-ci ilin mart ayında Lozanna şəhərində 3 illik memorandum imzalanmış və bu çərçivədə POLADA-nın icraçı direktoru, birinci və ikinci instansiya dinləmə qurumlarının rəhbərləri tərəfindən AMADA-nın antidopinq komitələrinin üzvləri üçün təlim keçirilmişdir.

Bundan başqa dekabrda Bakıda təşkil olunan dəyirmi masada və bir gün sonra baş tutan beynəlxalq konfransda POLADA-nın icraçı direktorunun müavini spiker qismində iştirak etmişdir.

**Litva Antidopinq Agentliyi (LTU NADO):** LTU NADO-nun 20 illiyi münasibəti ilə təşkil edilmiş konfransda AMADA və LTU NADO arasında əməkdaşlıq haqqında memorandum imzalanmış və həmin memorandum çərçivəsində LTU NADO-nun direktoru Bakıda təşkil olunan beynəlxalq konfransda iştirak etmişdir.

**PWC:** MODOC proqramından istifadə ilə əlaqədar şirkətinin nümayəndələri tərəfindən təşkil edilmiş ikigünlük təlimdə iştirak edilmiş və müvafiq sertifikat əldə olunmuşdur.

# Məkan məlumatı pozuntuları

**38**
**Ümumi Pozuntu**

2025-ci il ərzində ümumilikdə 38 məkan məlumatı pozuntusu (28 buraxılmış test, 10 məlumat təqdim etməmə) baş vermişdir. Bu pozuntulardan 26-sı idmançıların ilk; 11-i ikinci; 1-i isə üçüncü pozuntusu olmuşdur*.

### Məkan məlumatı pozuntularının tərkibi




### Pozuntuların təkrarlanma tendensiyası







* Antidopinq qaydalarının 2.4-cü maddəsinə əsasən, 12 ay müddəti ərzində Qeydiyyata alınmış Test Qrupunda olan idmançı tərəfindən üç (3) buraxılmış test və (və ya) məkan məlumatının təqdim edilməməsinin hər hansı kombinasiyası antidopinq qayda pozuntusu hesab edilir.



AMADA
STAY CLEAN

## Atipik nəticələr

### Atipik nəticələr üzrə aşkar edilmiş qadağan edilmiş maddələr




### Atipik nəticələrin idman növləri üzrə bölgüsü




**10** **Atipik Nəticə Müəyyən Edilmişdir**




### Venadaxili İnfuziya Halları* (Qadağan edilmiş üsul)

Dopinq nəzarəti formalarının mütəmadi monitorinqi nəticəsində 21 idmançı tərəfindən qadağan edilmiş üsul olan venadaxili infuziyadan istifadə edildiyi müəyyən edilmişdir. Həmin idmançılardan **20-si** infuziyanın həkim tövsiyəsi ilə klinika şəraitində və ya 100 mL-dən az miqdarda tətbiqini sübut edə bildiyi üçün antidopinq qayda pozuntusu hesab edilməmişdir. **Bir idmançı** isə heç bir təsdiqedici sənəd təqdim etmədiyi üçün 2.2-ci maddənin pozuntusu ilə əlaqədar iş başladılmış və sanksiya tətbiq edilmişdir.

* Qadağan edilmiş siyahının M2.2-ci maddəsinə əsasən, 12 saat ərzində 100 mL-dən çox venadaxili infuziyalar və/və ya inyeksiyalar, istisnanı xəstəxanadaxili müalicə, cərrahi prosedurlar və ya kliniki diaqnostik tədqiqatlar zamanı tətbiq təşkil edir.

# Əhatəli fəaliyyət

## Fəaliyyətimizin beynəlxalq monitorinqi

**7**
Yoxlanılan iş

**0**
Uyğunsuzluq

7 idmançı barəsində həyata keçirilən icraat üzrə materiallar monitorinq məqsədilə WADA və/ və ya beynəlxalq federasiyalar tərəfindən sorğu edilmiş və həmin materialların yoxlanılması nəticəsində apellyasiya şikayəti verilməsi üçün əsas ola biləcək heç bir prosessual pozuntu halları aşkar edilməmişdir.

## ISO Auditi




2025-ci ildə AMADA-da keyfiyyət idarəetmə sisteminin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğun institusional hazırlığın gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Bu çərçivədə 21 avqust tarixində ISO 9001:2015 standartı üzrə təlim təşkil olunmuşdur. Təlim AFNOR RUS-un idarəedici direktoru və beynəlxalq təcrübəyə malik auditor Leonid Dvorkin tərəfindən keçirilmiş, əməkdaşlara keyfiyyət idarəetmə sisteminin əsas tələbləri, sənədləşmə yanaşmaları və auditə hazırlıq məsələləri barədə ətraflı məlumat verilmişdir.

22 avqust 2025-ci il tarixində isə AMADA-da ISO üzrə audit aparılmışdır. Audit və qiymətləndirmə prosesinin nəticələrinə əsasən, AFNOR Certification tərəfindən Agentliyin ISO 9001:2015 standartı üzrə sertifikasiyası ilə bağlı müsbət qərar qəbul edilmişdir. Bu nəticə AMADA-da keyfiyyət idarəetmə sisteminin effektivliyini, daxili idarəetmə və sənədləşmə mexanizmlərinin beynəlxalq tələblərə uyğun qurulduğunu, eləcə də institusional inkişaf və davamlı təkmilləşmə istiqamətində görülən işlərin səmərəliliyini təsdiq etmişdir.



# ELM, TİBB VƏ TƏHSİL

2025-ci il ərzində AMADA-nın elm, tibb və təhsil istiqamətləri üzrə fəaliyyət strateji planlaşdırma, risk əsaslı yanaşma və beynəlxalq standartlara uyğunluq prinsipləri əsasında həyata keçirilmişdir. Fəaliyyət milli antidopinq sisteminin dayanıqlı inkişafının təmin edilməsi, insan resurslarının gücləndirilməsi, bilik əsaslı qərarvermənin təşviqi və beynəlxalq əməkdaşlıq mexanizmlərinin dərinləşdirilməsi məqsədlərinə xidmət etmişdir.

İl ərzində elm, tibb və təhsil istiqamətləri üzrə fəaliyyətlər Ümumdünya Antidopinq Məcəlləsi, Beynəlxalq Standartlar (ISE, ISTI, ISTUE), Avropa Şurasının Antidopinq Konvensiyası, UNESCO-nun müvafiq çərçivələri və milli qanunvericiliyin tələbləri nəzərə alınmaqla planlaşdırılmış və icra edilmişdir. Bu yanaşma AMADA-nın institusional etibarlılığının artırılmasına və beynəlxalq səviyyədə tanınan, müasir antidopinq qurumu kimi mövqeyinin möhkəmləndirilməsinə şərait yaratmışdır.

## Elm və normativ sənədlər

2025-ci il ərzində antidopinq sahəsində **əsas beynəlxalq normativ sənədlərin Azərbaycan dilinə tərcüməsi və milli istifadəyə uyğunlaşdırılması** istiqamətində sistemli fəaliyyət həyata keçirilmişdir. Bu istiqamətdə WADA tərəfindən təsdiq edilmiş və beynəlxalq antidopinq sistemində tətbiq olunan əsas sənədlər – **Qadağan edilmiş maddələr və metodlar siyahısı**, Əsas dəyişikliklər, **Monitorinq proqramı**, eləcə də **qlükokortikoidlərin istifadəsi və inyeksiya qaydalarına dair izahat sənədləri** peşəkar terminologiya qorunmaqla Azərbaycan dilinə tərcümə edilmiş və müvafiq hədəf qruplar üçün istifadəyə təqdim olunmuşdur.

## UNESCO ilə əməkdaşlıq və Qrant layihəsi

2025-ci ildə AMADA beynəlxalq donorlarla əməkdaşlıq sahəsində mühüm nailiyyət əldə etmiş və **UNESCO-nun Dopinqin aradan qaldırılması üzrə Beynəlxalq Fondu** çərçivəsində maliyyələşdirilən qrant layihəsinin qalibi olmuşdur.

**“Potensialın gücləndirilməsi və innovativ öyrənmə yanaşmaları vasitəsilə Azərbaycanda antidopinq təşəbbüslərinin gücləndirilməsi” (“Strengthening Anti-Doping Initiatives in Azerbaijan through Capacity Building and Innovative Learning Approaches”)** adlı layihə antidopinq təhsili və maarifləndirmə sahəsində institusional potensialın gücləndirilməsinə yönəlmişdir.

Layihə çərçivəsində təlimçi və mütəxəssislərin bilik və bacarıqlarının artırılması, innovativ tədris metodlarının tətbiqi, eləcə də maraqlı tərəflər arasında koordinasiyanın gücləndirilməsi nəzərdə tutulmuşdur. UNESCO ilə bu əməkdaşlıq AMADA-nın beynəlxalq səviyyədə etibarlı tərəfdaş kimi tanınmasını və həyata keçirilən fəaliyyətlərin dayanıqlılığını təmin edən mühüm mexanizm olmuşdur.

## Data analitikası işçi qrupu



2025-ci il ərzində Agentlik Böyük Britaniya Antidopinq Agentliyinin (UKAD) rəhbərliyi altında fəaliyyət göstərən Data analitikası işçi qrupunun (DAWG) fəal üzv kimi töhfə vermişdir. Bu tərəfdaşlıq vasitəsilə antidopinq sahəsində məlumat analitikası, süni intellektin tətbiqi və risk əsaslı yanaşmalar üzrə qabaqcıl beynəlxalq təcrübələr öyrənilmiş, bilik və təcrübə mübadiləsi daimi xarakter almışdır.

## iNADO-nun illik beynəlxalq vorkşopu

iNADO tərəfindən 2025-ci ildə təşkil olunmuş beynəlxalq vorkşop çərçivəsində AMADA-nın nümayəndəsi məruzəçi qismində çıxış etmişdir. Tədbirdə antidopinq təhsilində süni intellektin rolu, innovativ metodoloji yanaşmalar və praktik tətbiq nümunələri təqdim olunmuşdur. Vorkşop beynəlxalq mütəxəssislərlə canlı fikir mübadiləsi üçün əlverişli platforma yaratmış, Agentliyin bu sahədəki təşəbbüsləri geniş auditoriyaya çatdırılmışdır.



## Avropa Şurasının T-DO SCI iclası



Avropa Şurasının Antidopinq Konvensiyasının Elm üzrə Məsləhətçi Qrupunun (T-DO SCI) Parisdə keçirilmiş görüşündə AMADA-nı icraçı direktorun müavini Rüfət Efendiyev təmsil edib. Görüşdə 2025–2027-ci illər üçün elmi prioritetlər, yeni Ümumdünya Antidopinq Məcəlləsi və Beynəlxalq Standartlara elmi töhfələr, laboratoriyalarla bağlı yeniliklər, texniki sənədlər və 2026-cı ildə keçiriləcək “Qadağan edilmiş maddələr üzrə Beynəlxalq Konfrans”a hazırlıq məsələləri müzakirə olunub. Tədbir antidopinq sahəsində elmi əsaslı yanaşmaların və beynəlxalq əməkdaşlığın əhəmiyyətini bir daha vurğulayıb.

# Terapevtik İstifadə üçün İstisnalar (TİI) prosesi

- ✓ WADA Məcəlləsi
- ✓ ISTUE Standartı

2025-ci il ərzində AMADA-nın tibbi istiqamət üzrə fəaliyyəti Ümumdünya Antidopinq Məcəlləsi, Terapevtik İstifadə üçün İstisnalar üzrə Beynəlxalq Standart (ISTUE) və WADA-nın müvafiq tələblərinə uyğun şəkildə təşkil edilmişdir. Bu fəaliyyətin əsas məqsədi idmançıların sağlamlığının qorunması, müalicə proseslərinin antidopinq qaydaları ilə əlaqələndirilməsi və mümkün dopinq risklərinin qarşısının vaxtında alınması olmuşdur.

**14** — **Müraciət üzrə tibbi sənədlərin təhlili**

- **8** — **TİI Komitəsinə təqdim olunmuşdur**
- **6** — **Tamamlanmamış müraciət üzrə idmançılara izahat və prosedur dəstəyi göstərilmişdir**

### TİI müraciətlərinin statusu




- TİI Komitəsinə göndərilmiş müraciətlər — 8
- Tamamlanmamış müraciətlər — 6

### TİI Komitəsinə göndərilmiş müraciətlərin nəticələri




- İcazə verilmiş müraciətlər— 3
- İmtina edilmiş müraciətlər — 3
- İcra mərhələsində olan müraciətlər — 2

### TİI Komitəsinə göndərilmiş müraciətlərin növləri




- Proaktiv müraciətlər — 5
- Retroaktiv müraciətlər — 2
- Təkrar baxış müraciəti — 1



AMADA STAY CLEAN

## Dərman sorğuları və təhlil

**44**
Cavablandırılmış Sorğu

Ümumilikdə **103** preparat təhlil edilmişdir:

**88**
Dərman preparatı

**15**
Bioloji aktiv qida məhsulu (BAQM)

Hesabat dövrü ərzində dərman sorğuları və təhlili istiqaməti üzrə idmançılar və federasiya həkimlərindən kəskin və xroniki xəstəliklərin müalicəsində istifadə olunan preparatlarla bağlı daxil olmuş 44 sorğu cavablandırılmışdır. Aparılmış qiymətləndirmə çərçivəsində ümumilikdə 103 preparat təhlil edilmiş, bunlardan 88-i dərman preparatı, 15-i isə bioloji aktiv qida məhsulu (BAQM) təşkil etmişdir.



# Təhsil və maarifləndirmə fəaliyyəti

**4 292**
**Ümumi iştirakçı sayı**

**106**
**Maarifləndirmə tədbiri**

2025-ci il ərzində antidopinq təhsili AMADA-nın əsas prioritetlərindən biri olmuşdur. Fəaliyyət hədəf qruplarının risk səviyyələri və beynəlxalq standartlar nəzərə alınmaqla planlaşdırılmışdır. Bu il həm miqyas, həm də məzmun baxımından əhəmiyyətli artım əldə edilmişdir.

**Seminarlar**
**66** tədbir
**1 678** iştirakçı

**Vebinarlar**
**8** tədbir
**224** iştirakçı

**Tədbirlər**
**4** tədbir
**350** iştirakçı

**Təbliğat fəaliyyətləri**
**20** tədbir
**1 660** iştirakçı

**Təlimlər**
**8** tədbir
**108** iştirakçı

**E-təlim kursları**
**Onlayn kurslar**
**272** iştirakçı

## Regional əhatəlilik

Maarifləndirmə fəaliyyəti Bakı ilə yanaşı regionlarda da uğurla həyata keçirilmişdir.

- Bakı
- Gəncə
- Qəbələ
- Şəki
- Mingəçevir
- Göygöl
- Yevlax
- Füzuli
- Suqovuşan
- Xankəndi

## Avropa Şurasının T-DO ED iclası



Avropa Şurasının Antidopinq Konvensiyası çərçivəsində fəaliyyət göstərən Təhsil üzrə Məsləhətçi Qrupun (T-DO ED) 2025-ci il üzrə iclasında AMADA da təmsil olunub. İclasın gündəliyinə antidopinq təhsilinin beynəlxalq prioritetləri, siyasət istiqamətləri və üzv dövlətlər arasında təcrübə mübadiləsi məsələləri daxil edilmişdir. Tədbirdə AMADA-nın həyata keçirdiyi təhsil təşəbbüsləri iştirakçılara təqdim edilmiş, qabaqcıl beynəlxalq təcrübələrin milli fəaliyyətlərə inteqrasiyası istiqamətində mühüm nəticələrin əldə edildiyi diqqətə çatdırılmışdır.

## Avropa Ağır Atletika Federasiyası üçün antidopinq vebinarı

2025-ci ildə Avropa Ağır Atletika Federasiyasının "International Coach Licence – Coach Education & Development Pathway 2025–2028" proqramı çərçivəsində təşkil olunan vebinarda Agentliyin nümayəndəsi məruzəçi qismində çıxış etmişdir. Vebinar boyunca antidopinq qaydaları, Ümumdünya Antidopinq Məcəlləsinin əsas müddəaları, qadağan edilmiş maddələrin siyahısı və dopinq nəzarəti prosesi ətraflı izah edilmişdir. Məşqçilərin və idmançı köməkçi heyətinin hüquqi məsuliyyəti xüsusi vurğulanaraq, təmiz idman prinsiplərinin qorunmasının vacibliyi iştirakçıların diqqətinə çatdırılmışdır.



## "Qloballaşan dünyada futbol" mövzusunda təqdimat




Mayın 29-da Bakıda keçirilən beynəlxalq futbol konfransda "Qloballaşan dünyada futbol: risklər və məsuliyyətlər" mövzusunda təqdimat geniş auditoriyaya təqdim edilmişdir. Futbol mühitindəki antidopinq riskləri, beynəlxalq tənzimləmə təcrübəsi və məsuliyyət bölgüsü real hadisələrə əsaslanan nümunələrlə əyani şəkildə izah olunmuşdur. Təqdimatın əsas məqsədi iştirakçıların mövzuya dair məlumatlılığını artırmaq və risklərin effektiv idarə edilməsinə dəstək verməkdən ibarət olmuşdur.

# Antidopinq maarifləndirilməsi fotolarda




Şəki



Mingəçevir



Suqovuşan



Bakı




Fizuli



Bakı



Bakı



Mingəçevir



Bakı



Fizuli



Bakı



Fizuli

# “NOC Clean Sport Education Guide” sənədinə AMADA-nın metodoloji töhfəsi




2025-ci ildə **ITA** tərəfindən hazırlanmış **“NOC Clean Sport Education Guide”** sənədinin tərtibi prosesində AMADA tərəfindən hazırlanmış metodoloji yanaşmalardan istifadə olunmuşdur. Sözügedən sənəddə **effektiv təbliğat tədbirlərinin planlaşdırılması və icrası** üzrə bölmə AMADA-nın praktiki təcrübəsi və tətbiq etdiyi yanaşmalar əsasında formalaşdırılmışdır.

## AMADA-nın Təqdim Etdiyi Əsas Prinsiplər

Regional Fəaliyyət | Real Təsir | Fəal Cəlb Olunma | İnteraktiv Formatlar | Məqsədyönlü Dizayn

Bu bölmədə təbliğat tədbirlərinin məqsədyönlü şəkildə dizayn edilməsi, interaktiv formatlardan istifadə, regionlarda fəaliyyətlərin təşkili, iştirakçıların fəal cəlb olunması və tədbirlərin real təsirinin artırılması üzrə əsas prinsiplər əks etdirilmişdir.

AMADA-nın təqdim etdiyi yanaşmalar beynəlxalq səviyyədə tətbiq oluna bilən **praktiki və funksional model** kimi qiymətləndirilmişdir.

AMADA-nın bu metodoloji töhfəsi Agentliyin antidopinq təhsili və maarifləndirmə sahəsindəki peşəkar yanaşmasının və innovativ düşüncə tərzinin beynəlxalq səviyyədə tanındığını göstərir. Bu, eyni zamanda AMADA-nın yalnız icraedici qurum kimi deyil, həm də **beynəlxalq antidopinq icması üçün bilik və metodologiya formalaşdıran tərəf** kimi rolunu nümayiş etdirir.

# Əhatəli fəaliyyət



**OVEP və erkən yaşlarda maarifləndirmə**

OLYMPIC VALUES
EDUCATION PROGRAMME

MOK ilə əməkdaşlıq çərçivəsində **Olympic Values Education Programme (OVEP)** üzrə fəaliyyət 2025-ci ildə də davam etdirilmişdir. OVEP fəaliyyəti erkən yaşlardan təmiz idman, dürüstlük və etik davranış dəyərlərinin formalaşdırılmasına yönəlmişdir.

**99**

**Fiziki tərbiyə müəllimi**

Bu fəaliyyət çərçivəsində **99 fiziki tərbiyə müəllimi** xüsusi təlimlərə cəlb edilmiş, müəllimlər vasitəsilə məktəb yaşlı uşaqlara təmiz idman dəyərlərinin ötürülməsi üçün institusional baza gücləndirilmişdir.

OVEP fəaliyyəti uzunmüddətli profilaktik təsir yaradan əsas mexanizmlərdən biri olmuşdur.




# MEDİA VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR

2025-ci il ərzində AMADA media və ictimaiyyətlə əlaqələr sahəsində fəaliyyətini daha çevik və məqsədyönlü yanaşma əsasında quraraq antidopinq siyasətinin cəmiyyətə çatdırılmasını gücləndirmişdir. İdman jurnalistləri üçün təşkil olunan intellektual yarış və antidopinq sorğusu media nümayəndələrinin mövzuya marağının və bilik səviyyəsinin artırılmasına xidmət etmiş, yerli KİV ilə əməkdaşlıq daha da genişləndirilmişdir.

## Statistik göstəricilər

**36** **Press-reliz**

**12** **Müsahibə**

**4** **TV Veriliş**

**6** **Rəsmi Görüş**

2025-ci ildə KİV-ə 36 press-reliz təqdim olunmuşdur. Press-relizlərin Azərbaycan, rus və ingilis dillərində dərc olunması təmin edilmişdir.

Həmçinin AMADA-nın əməkdaşlarından 12 müsahibə alınıb, müxtəlif televiziya kanallarında efirə gedən 4 verilişə qonaq dəvət edilmişdir. AMADA-nın rəhbər heyəti ilə müxtəlif qurumlar arasında 6 görüş təşkil olunub. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə əməkdaşlıq haqqında memorandum imzalanmışdır.



### Sosial Şəbəkə Paylaşımları

- Müsabiqə — 2
- Maarifləndirici post — 8
- Ədalətli idman həftəsi — 28
- III MDB Oyunları — 29
- Press-relizlər — 36
- Əlamətdar günlər — 47
- Digər — 98

İl ərzində sosial şəbəkə hesablarında **248 paylaşım** edilmişdir. Onlardan 8-i maarifləndirici post, 36-sı press-reliz, 47-si əlamətdar günlər, 28-i "Ədalətli idman həftəsi" çərçivəsində, 29-u III MDB Oyunları, 2-si müsabiqə, digərləri isə mətbuatda AMADA ilə bağlı süjetlərin videosu və maarifləndirici seminarlar barədə olmuşdur.

**1 489 857**
**Nəfər - Ümumi əhatə dairəsi**

**14.5 %**
**Ölkə əhalisinin nisbəti**

Sosial şəbəkələr üzrə ümumi izləyici sayı **7628** nəfər təşkil etmişdir. Təmiz idman təbliğatının 2025-ci il üzrə əhatə dairəsi **1,489,857 nəfər** omuşdur. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin noyabr ayı üzrə açıqlamasına görə, Azərbaycanda əhalinin sayı 10,256,998 nəfərdir. AMADA-nın təmiz idman təbliğatı ölkə əhalisinin **14.5 faizini** əhatə edib.

# Əhatəli fəaliyyət

### MART

Martda "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı" çərçivəsində AMADA-nın 2024-cü il üçün fəaliyyətini əks etdirən yazı

### İYUN

İyunda Bakıda futbol üzrə beynəlxalq konfransda iştirak

### İYUL

İyulda Azərbaycan Üzgüçülük Federasiyasının təşkilatçılığı ilə keçirilən "ASF Konfransı 2025"də iştirak

### AVQUST

214 idmançının iştirakı ilə antidopinq siyasəti haqqında məlumatlılıq sorğusu keçirilməsi

### NOYABR

Noyabrda 27-ci Azərbaycan Beynəlxalq Tibb İnnovasiyaları Sərgisində iştirak

### DEKABR

Dekabrda "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin hüquqi, tibbi və sosial aspektləri" mövzusunda qurumlararası dəyirmi masada iştirak

# Ədalətli İdman Həftəsi - 2025

WADA 2025-ci il aprelin 11-ni dünyada Ədalətli İdman Günü elan etmişdir. Təmiz idman dəyərlərinə həsr olunan Ədalətli İdman Günü dopinqə qarşı qlobal mübarizə haqqında idmançılar, idman ictimaiyyəti və digər maraqlı tərəflər üçün məlumatlandırma məqsədi daşıyır.

WADA-nın təşəbbüsünə qoşulan AMADA 2025-ci il 7-13 aprel tarixlərini ölkəmizdə “Ədalətli idman həftəsi” elan etmişdir. Ali antidopinq qurumu hər il müxtəlif şəkildə qeyd olunan Ədalətli İdman Gününün 2025-ci ildə rəqəmsal platformalar vasitəsilə təbliğinə çağırış etmişdir. WADA həmin günün “Ədalətli yarış səndən başlayır” şüarı altında keçirilməsini təklif etmişdir.

AMADA-nın təşəbbüsünə **22 yerli** idman qurumu, **7 titullu idmançı** qoşulmuşdur. Sosial mediada bu günlə bağlı **28 post**, **9 televiziya kanalında** isə süjet yayımlanmışdır. Həmçinin AMADA-nın paylaşımları WADA-nın sosial media lövhəsində yer amışdır. Azərbaycan İdman Akademiyasında tələbələrlə görüş təşkil olunmuşdur. **“Ədalətli yarış səndən başlayır!”** pankartı futbol üzrə Azərbaycan Premyer Liqasının XXX turu çərçivəsində keçirilən “Səbail” – “Qarabağ” və “Neftçi” – “Zirə” matçlarında, qadın voleybolçular arasında Azərbaycan Yüksək Liqasının XIX turunda keçirilən “Azərreyl” – “Abşeron”, “Murov Az Terminal” - “Milli Aviasiya Akademiyası”, kişi voleybolçuların ölkə çempionatının XIX turunda baş tutan “Azərreyl” – MOİK oyununda açılmışdır.

**İştirakçılar**

| | |
|---|---|
| 22 | Yerli İdman qurumu |
| 7 | Titullu İdmançı |

**Media və PR**

| | |
|---|---|
| 28 | Post |
| 9 | Televiziya kanalı |





ASA-da tələbələr üçün bilik yarışması




"Səbail" - "Qarabağ" futbol oyunu




"Azərreyl" - "Abşeron" voleybol oyunu




"Azərreyl" - MOİK voleybol oyunu




"Neftçi" - "Zirə" futbol oyunu

# Milli Mətbuatın 150 illiyinə təmiz idman töhfəsi




## İntellektual yarış

AMADA-nın təşkilatçılığı ilə Milli Mətbuatın 150 illik yubileyinə həsr olunmuş idman jurnalistləri arasında intellektual yarış keçirilmişdir. Yarışda şəhid jurnalistlərin və vaxtsız dünyasını dəyişmiş media nümayəndələrinin adlarını daşıyan komandalar antidopinq, Azərbaycan idmanı və Olimpiya hərəkatının tarixi ilə bağlı hazırlanmış sualları cavablandırıblar. Ən çox xal toplayan Çingiz Mustafayev komandası yarışın qalibi olmuşdur. Müxtəlif nominasiyalar üzrə də qaliblər müəyyənləşmişdir. Qalib və mükafatçılara xatirə hədiyyələri təqdim olunmuşdur.

## Məlumatlılıq sorğusu

İdman jurnalistləri arasında Milli Mətbuatın 150 illiyini həsr olunmuş antidopinq üzrə sorğu təşkil olunmuşdur. Sorğuda jurnalistlərin bu sahədə biliklərinin təkmilləşdirilməsi üçün ehtiyaclar müəyyən edilmiş və AMADA tərəfindən həyata keçiriləcək maarifləndirmə və təlim proqramları üçün əsas yaratmışdır. Sorğuda 40-dək idman jurnalisti iştirak etmişdir.



Milli Mətbuatın 150 illik yubileyinə həsr olunmuş intellektual yarış









# III MDB Oyunlarında antidopinq fəaliyyətinin işıqlandırılması

## AMADA-nın təmiz idman təbliğatı bütöv Azərbaycanı əhatə edir

AMADA III MDB Oyunları çərçivəsində həyata keçirdiyi uğurlu və sistemli təbliğat proqramı ilə yadda qalmışdır. Sözügedən proqram çərçivəsində AMADA tərəfindən Oyunlara ev sahibliyi edən **7 şəhər** tam şəkildə əhatə olunmuşdur. Tədbirlər zamanı arxiv və rəsmi sosial media hesabları üçün **500-ə yaxın fotoşəkil** çəkilmiş, Olimpiya mükafatçıları, dünya və Avropa çempionatlarının medalçıları, xarici mütəxəssislər və rəsmi şəxslər də daxil olmaqla **30-dan artıq müsahibə** alınmış, müvafiq video materiallar hazırlanmışdır. **On fərqli saytda** AMADA-nın maarifləndirmə təbliğatı ilə bağlı xəbərlər dərc olunmuşdur.

**7** Şəhər

**~500** Foto

**30+** Müsahibə

**10** Sayt

Eyni zamanda, AMADA tərəfindən təmiz idmanın təbliği istiqamətində həyata keçirilən fəaliyyət ölkə miqyasında geniş əhatə dairəsi ilə seçilmişdir. Belə ki, Xankəndi ultramarafonunun sonuncu mərhələsi – Ağdam–Xankəndi marşrutu üzrə, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş avarçəkmə üzrə "Prezident kuboku – 2025" beynəlxalq reqatası çərçivəsində Füzuli rayonunda keçirilən kütləvi tədbirdə, eləcə də Suqovuşanda baş tutan beynəlxalq reqata zamanı təmiz idman dəyərlərinin təbliğatı aparılmışdır. Bu fəaliyyət bütöv Azərbaycan ərazisini əhatə etməklə, sağlam və ədalətli idman prinsiplərinin təşviqinə mühüm töhfə vermişdir.
























III MDB Oyunları çərçivəsində təbliğat proqramı



# İNFORMASİYA TEXNOLOGİYALARI VƏ TƏHLÜKƏSİZLİYİ

2025-ci il ərzində Agentlikdə informasiya texnologiyaları və informasiya təhlükəsizliyi sahəsində fəaliyyətlər əsasən rəqəmsallaşmanın genişləndirilməsi, kibertəhlükəsizlik səviyyəsinin yüksəldilməsi və İT infrastrukturunun dayanıqlığının təmin edilməsinə yönəlmişdir.

# Antidopinq Məlumat Sistemi




2025-ci ildə antidopinq fəaliyyətinin mərkəzləşdirilmiş informasiya sistemləri üzərindən idarə olunması məqsədilə **Antidopinq Məlumat Sistemi** və onun altsistemlərinin hazırlanmasına başlanılmış, maliyyə, insan resursları və anbar əməliyyatlarının avtomatlaşdırılması təmin edilmişdir. Bununla yanaşı, informasiya təhlükəsizliyi üzrə beynəlxalq tələblərə uyğunluğun təmin edilməsi, kibertəhlükəsizlik risklərinin azaldılması və əməkdaşların təhlükəsizlik üzrə bilik və bacarıqlarının artırılması istiqamətində tədbirlər həyata keçirilmişdir. Görülən işlər Agentliyin rəqəmsal transformasiya prosesinin davamlılığını və fəaliyyətin etibarlılığını gücləndirmişdir.

# İnformasiya təhlükəsizliyi təlimlərin keçirilməsi

**14** Təlim **4** Əsas Mövzu

İnformasiya təhlükəsizliyi siyasətinə uyğun olaraq, əməkdaşların və Nümunə toplama heyətinin kibertəhlükəsizlik sahəsində bilik və bacarıqlarının artırılması, eyni zamanda informasiya sistemlərinin kibertəhdidlərdən qorunmasının təmin edilməsi, insan faktoru ilə bağlı risklərin azaldılması və əməkdaşların mümkün kiberinsidentlərə düzgün reaksiya vermə bacarıqlarının gücləndirilməsi məqsədi ilə il ərzində maarifləndirici təlimlər təşkil edilmişdir. Təlimlər **4 əsas** mövzunu əhatə etmiş və hər mövzu üzrə müxtəlif qruplar şəklində, ümumilikdə, **14 təlim** keçirilmişdir.

## Təlimlərin mövzuları aşağıdakılardır:

- **Kibertəhlükəsizlik hücumları və onların növləri**
- **Korporativ kompüter və mobil cihazlardan təhlükəsiz istifadə**
- **E-poçt təhlükəsizliyi: korporativ mühit üçün standartlar və təcrübələr**
- **Şəbəkə və internetdən təhlükəsiz istifadə qaydaları**

**Təlim statistikası — AMADA**

| Mövzu | Təlim sayı | İştirakçı sayı |
|---|---|---|
| Kibertəhlükəsizlik hücumları və onların növləri | 2 | 22 |
| Kompüter və mobil cihazlardan təhlükəsiz istifadə | 2 | 19 |
| Korporativ e-poçtdan təhlükəsiz istifadə | 2 | 17 |
| Şəbəkə və internetdən təhlükəsiz istifadə qaydaları | 2 | 19 |
| **CƏMİ** | **8** | |

**Təlim statistikası — Nümunə toplama heyəti**

| Mövzu | Təlim sayı | İştirakçı sayı |
|---|---|---|
| Kibertəhlükəsizlik hücumları və onların növləri | 2 | 16 |
| Kompüter və mobil cihazlardan təhlükəsiz istifadə | 1 | 15 |
| Korporativ e-poçtdan təhlükəsiz istifadə | 2 | 16 |
| Şəbəkə və internetdən təhlükəsiz istifadə qaydaları | 1 | 15 |
| **CƏMİ** | **6** | |

# Maliyyə, insan resursları və anbar proseslərinin avtomatlaşdırılması

**AVTOMATLAŞDIRMA**

- Mühasibatlıq
- Anbar uçotu
- İnsan resursları

Agentlikdə maliyyə, insan resursları və anbar prosesləri mərkəzləşdirilmiş qaydada idarə olunmuşdur. Belə ki, Mühasibatlıq, Anbar uçotu və İnsan resursları (HR) üzrə modullar tətbiq edilmişdir.



Mühasibatlıq modulu vasitəsilə maliyyə əməliyyatlarının uçotu, xərclərin və gəlirlərin qeydiyyatı, ödəniş sənədlərinin hazırlanması, hesabatların formalaşdırılması və maliyyə nəzarəti prosesləri avtomatlaşdırılmışdır. Anbar uçotu modulu çərçivəsində mal və materialların qəbulu, saxlanması, silinməsi, qalıqların izlənilməsi və inventarlaşdırma prosesləri elektron mühitdə həyata keçirilir. İnsan resursları modulu isə əməkdaşların şəxsi məlumatlarının idarə edilməsi, əmək müqavilələrinin uçotu, işə qəbul və işdən azad olunma prosesləri, məzuniyyətlərin və kadr hərəkətinin qeydiyyatını əhatə edir.

## Hökumət buluduna (G-cloud) keçid

2025-ci ildə Agentliyin Hökumət Buluduna keçidinə başlanılmışdır. Daxili serverlərdən kənarda saxlanılan məlumatlar və infrastruktur komponentləri mərhələli şəkildə Hökumət Buludu mühitinə miqrasiya olunmuşdur. Keçid zamanı məlumatların təhlükəsizliyi və sistemlərin fasiləsiz fəaliyyəti təmin edilmişdir.

## Beynəlxalq konfransın təşkilinə IT dəstəyi

**http://conference.amada.az**

Noyabr ayında keçirilmiş beynəlxalq konfransın iştirakçıları və təşkilatçıları arasında məlumat mübadiləsinin asanlaşdırılması və tədbirin operativ idarə olunması məqsədilə **conference.amada.az** subdomeni altında xüsusi veb səhifə hazırlanmışdır. Hazırlanan platformada tədbir haqqında əsas məlumatlar, konfransın gündəliyi, sessiyalar üzrə mövzular, çıxış edəcək spikerlər, onların təqdimatları və digər əlaqəli məlumatlar strukturlaşdırılmış şəkildə istifadəçilərin ixtiyarına verilmişdir. Səhifənin funksional quruluşu iştirakçıların lazımi informasiyaya sürətli və rahat şəkildə çıxışını təmin etmişdir.



# Əhatəli fəaliyyət

Hesabat dövründə Antidopinq Məlumat Sisteminin yaradılması üzrə işl başlanılmışdır. Sistem antidopinq fəaliyyəti üzrə məlumatların mərkəzləşdirilmiş, təhlükəsiz və strukturlaşdırılmış şəkildə idarə olunması məqsədilə layihələndirilmişdir. İlkin mərhələdə **"Atlet İnformasiya Sistemi"** və **"Təhsil məlumatları"** modulu hazırlanaraq sistemə inteqrasiya edilmişdir. **"Təhsil məlumatları"** modulu vasitəsilə təlim və seminarların planlaşdırılması, iştirakçı və təlimçi qeydiyyatı, pre- və post qiymətləndirmə, statistik təhlil və hesabatlılıq prosesləri avtomatlaşdırılmışdır. Sistemdə rol əsaslı giriş idarəetməsi (RBAC) tətbiq edilmiş, istifadəçi hüquqları və giriş icazələri müəyyən edilmişdir. Təhlükəsizlik və məxfilik tələblərinə uyğun olaraq məlumatların qorunması və giriş nəzarəti mexanizmləri qurulmuşdur.

**Sistem Modulları:**

- Atlet İnformasiya Sistemi
- Təhsil məlumatları



**STATUS:**
İnkişaf (Development) mühiti

**HƏDƏF:**
2026

Hazırda sistem **inkişaf (development) mühitindədir** və funksional testlər mərhələsindədir. Hazırlanmış modulların **2026-cı ildən etibarən mərhələli şəkildə istismara verilməsi və tətbiqinə başlanılması** planlaşdırılır. Növbəti mərhələdə sistemə **yeni modulların əlavə olunması**, həmçinin **analitik və hesabatlılıq imkanlarının genişləndirilməsi** nəzərdə tutulur.




# BEYNƏLXALQ FƏALİYYƏT VƏ ƏMƏKDAŞLIQ

2025-ci ildə Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) beynəlxalq əməkdaşlığın genişləndirilməsi, Ümumdünya Antidopinq Məcəlləsinin və Beynəlxalq Standartların tətbiqinin gücləndirilməsi, eləcə də milli antidopinq sisteminin beynəlxalq müstəviyə inteqrasiyasının dərinləşdirilməsi istiqamətində məqsədyönlü və sistemli fəaliyyət həyata keçirmişdir. Hesabat dövründə Agentlik Ümumdünya Antidopinq Agentliyi (WADA), Avropa Şurası, eləcə də Polşa, Litva, Avstriya, Tunis və digər ölkələrin milli antidopinq təşkilatları ilə əməkdaşlığı inkişaf etdirmiş, beynəlxalq səviyyəli təşəbbüslərdə fəal iştirak etmiş və beynəlxalq antidopinq siyasətinin formalaşdırılmasına töhfə vermişdir.

## Yerli əməkdaşlıq

2025-ci ildə Azərbaycan Milli Antidopinq Agentliyi-nın əməkdaşlıq siyasəti iki əsas istiqamət üzrə formalaşdırılmışdır: yerli və beynəlxalq tərəfdaşlıq. Hər iki istiqamət qurumun strateji prioritetlərinə uyğun şəkildə inkişaf etdirilmiş və fəaliyyət planında xüsusi yer tutmuşdur.

Bu əməkdaşlıq modeli dopinqə qarşı mübarizənin institusional gücləndirilməsinə, elmi-tədris fəaliyyətinin genişləndirilməsinə və tədqiqat sahəsində yeni təşəbbüslərin təşviqinə xidmət etmişdir. Paralel şəkildə qurulan tərəfdaşlıqlar vasitəsilə həm ölkə daxilində əlaqələr möhkəmləndirilmiş, həm də beynəlxalq təcrübə və bilik mübadiləsi təmin olunmuşdur.

### Antidopinq fəaliyyəti üzrə institusional əməkdaşlıq

- Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi
- Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi
- Azərbaycan Respublikasının Milli Paralimpiya Komitasi
- Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
- Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
- Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
- Azərbaycan Dövlət İnformasiya Agentliyi
- Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti
- Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti
- Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
- Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi
- Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu
- Analitik Ekspertiza Mərkəzi
- Azərbaycan İdman Akademiyası
- Azərbaycan Deflimpiya Komitəsi

# Avropa Şurası çərçivəsində fəaliyyət



2025-ci ildə AMADA Avropa Şurasının Antidopinq Konvensiyasının Monitorinq Qrupu **(T-DO)** və Ümumdünya Antidopinq Agentliyi üzrə Ad Hoc Avropa Komitəsinin **(CAHAMA)** fəaliyyətində yaxından iştirak etmişdir. Bu platformalar Avropa regionunda antidopinq siyasətinin koordinasiyası, Ümumdünya Antidopinq Məcəlləsinin tətbiqi və WADA ilə bağlı məsələlər üzrə Avropa ölkələrinin mövqelərinin formalaşdırılması baxımından əsas institusional mexanizmlərdir.




13 mart tarixində Strasburq şəhərində keçirilmiş CAHAMA-nın 67-ci iclası çərçivəsində AMADA rəhbərliyinin nümayəndəsi **CAHAMA-nın Gender bərabərliyi üzrə məruzəçisi (Gender Equality Rapporteur)** vəzifəsinə seçilmişdir. Bu təyinat Avropa Şurasının antidopinq sistemində gender bərabərliyi siyasətinin formalaşdırılması və həyata keçirilməsi üzrə koordinasiya funksiyasını əhatə edir və AMADA-nın beynəlxalq antidopinq sistemində artan institusional rolunun və nüfuzunun mühüm göstəricisidir.



2025-ci il ərzində Avropa Şurasının Antidopinq Konvensiyasının Monitorinq Qrupu çərçivəsində antidopinq sahəsində gender bərabərliyinin təşviqi istiqamətində mühüm institusional addımlar atılmışdır. 3–4 sentyabr 2025-ci il tarixlərində keçirilmiş 61-ci iclasda **“Gender bərabərliyinin antidopinq siyasətinə inteqrasiyası” üzrə ekspert qrupunun (T-DO GEMA)** Texniki Şərtləri qəbul edilmiş, CAHAMA-nın Gender bərabərliyi üzrə məruzəçisi qrupun rəhbəri təyin olunmuş və namizədlərin irəli sürülməsi prosesinə başlanılmışdır. Belə ki, gender bərabərliyi üzrə ümumi prinsiplərdən praktiki icra mexanizmlərinə keçid təmin olunmuşdur. 4 noyabr 2025-ci il tarixində keçirilmiş ilk iclasda isə 2027-ci ilin sonunadək Avropa Şurasının müvafiq Tövsiyəsinin və monitorinq çərçivəsinin hazırlanmasına yönəlmiş fəaliyyətin əsas yol xəritəsi müəyyən edilmişdir.

Bu çərçivədə antidopinq sistemində gender bərabərliyinin inteqrasiyasını təmin etmək məqsədilə T-DO GEMA fəaliyyətə başlamışdır. Qrupun fəaliyyəti gender bərabərliyi prinsiplərinin antidopinq siyasətinə tətbiqi, müvafiq tövsiyələrin hazırlanması və Avropa səviyyəsində institusional koordinasiyanın gücləndirilməsinə yönəlmişdir.

Hesabat dövründə AMADA Strasburq şəhərində keçirilmiş CAHAMA-nın 67-ci (13 mart), 68-ci (2–3 sentyabr) və 69-cu (19–20 noyabr) iclaslarında iştirak etmişdir. Bu iclaslarda WADA-nın idarəetmə strukturları, beynəlxalq antidopinq siyasətinin inkişafı və Avropa səviyyəsində koordinasiya məsələləri müzakirə olunmuşdur. Eyni zamanda, Agentlik Monitorinq Qrupunun plenar iclaslarında və əlaqəli işçi strukturlarında təmsil olunaraq beynəlxalq standartların tətbiqi, uyğunluq mexanizmlərinin gücləndirilməsi və milli antidopinq sisteminin institusional inkişafı istiqamətində əməkdaşlığa töhfə vermişdir.

## WADA nümayəndələrinin Azərbaycana işgüzar səfəri




20-23 oktyabr tarixlərində Ümumdünya Antidopinq Agentliyinin (WADA) nümayəndə heyətinin Azərbaycana rəsmi səfəri təşkil edilmişdir. Səfər çərçivəsində Bakıda 18–19 mart 2026-cı il tarixlərində keçiriləcək WADA-nın Avropa üzrə Regional Simpoziumuna hazırlıq məsələləri müzakirə edilmiş, təşkilati və strateji koordinasiya həyata keçirilmişdir. Bu əməkdaşlıq Azərbaycanın antidopinq sahəsində regional əməkdaşlıq platforması kimi rolunun gücləndirilməsinə və AMADA-nın beynəlxalq antidopinq sistemində strateji tərəfdaş kimi mövqeyinin möhkəmləndirilməsinə töhfə vermişdir.

## İdmanda dopinqlə mübarizə üzrə dünya konfransında iştirak

Dekabrın 1-5-də Koreya Respublikasının Busan şəhərində WADA-nın İdmanda dopinqlə mübarizə üzrə dünya konfransı keçirilib. Altı ildən bir təşkil olunan konfransda “Yeni Ümumdünya Antidopinq Məcəlləsi və Beynəlxalq Standartların tətbiqinə dəstək” adlı plenar sessiyada çıxış edən AMADA-nın İcraçı direktoru gələn il ölkəmizdə keçiriləcək WADA-nın Avropa üzrə ilk Regional Simpoziumunun əhəmiyyətini vurğulayaraq Azərbaycanın təmiz idman sahəsində əldə etdiyi nailiyyətlərdən, paytaxt Bakının mötəbər idman yarışlarına yüksək səviyyədə ev sahibliyi etməsindən danışıb.



## Avropa antidopinq konfransında iştirak



12 iyun 2025-ci il tarixində AMADA-nın nümayəndə heyəti Norveçin Bergen şəhərində keçirilən “Milli sistemləri gücləndirmək üçün Avropa NADO-larını bir araya gətirmək” adlı yüksək səviyyəli konfransda fəal iştirak ediblər. Avropa Şurası və Norveç Antidopinq Agentliyi tərəfindən birgə təşkil olunan tədbirdə WADA-nın yüksək vəzifəli şəxsləri, 40-dan artıq milli antidopinq təşkilatının nümayəndələri, beynəlxalq ekspertlər və dövlət rəsmiləri iştirak ediblər. Konfransda qitədə antidopinq sahəsinin qarşılaşdığı əsas çağırışlar və strateji prioritetlər müzakirə olunub.

## Beynəlxalq konfransda təqdimat



3-4 oktyabr tarixlərində Tunis Respublikasında keçirilmiş beynəlxalq konfransda AMADA tərəfindən antidopinq sahəsində innovativ yanaşmalar, data əsaslı qərar qəbuletmə və müasir texnologiyaların tətbiqi ilə bağlı təqdimat edilmişdir. Konfrans çərçivəsində beynəlxalq tərəfdaşlarla görüşlər keçirilmiş və antidopinq sahəsində elmi əməkdaşlıq, təhsil və institusional inkişaf istiqamətləri üzrə əməkdaşlıq imkanları müzakirə edilmişdir.

## Avstriya ilə əməkdaşlıq (NADA Austria)






11-12 dekabr tarixlərində AMADA rəhbərliyinin Avstriya Respublikasına işgüzar səfəri təşkil edilmişdir. Səfər çərçivəsində Avstriyanın Milli Antidopinq Agentliyi (NADA Austria) ilə Anlaşma Memorandumu imzalanmışdır. Memorandum nəticələrin idarə olunması, testetmə, antidopinq təhsili və profilaktika, tədqiqat və təhqiqat sahələrində əməkdaşlığın inkişafını nəzərdə tutur.

Səfər çərçivəsində, həmçinin WADA tərəfindən akkreditə olunmuş dopinq nəzarəti laboratoriyasında keçirilmiş görüşlər zamanı antidopinq analizləri, elmi metodologiyalar və laboratoriya prosedurları üzrə qabaqcıl beynəlxalq təcrübə ilə tanışlıq həyata keçirilmişdir.

## Polşa ilə əməkdaşlıq (POLADA)



19 mart 2025-ci il tarixində İsveçrənin Lozanna şəhərində AMADA və Polşa Milli Antidopinq Agentliyi (POLADA) arasında Anlaşma Memorandumu imzalanmışdır. Memorandum antidopinq sahəsində əməkdaşlığın genişləndirilməsi, elmi və təhsil təşəbbüslərinin gücləndirilməsi, həmçinin beynəlxalq standartlara uyğun fəaliyyətin təkmilləşdirilməsini nəzərdə tutur.

Memorandum çərçivəsində 2–3 iyul tarixlərində Polşa Antidopinq Agentliyinin nümayəndə heyətinin Azərbaycana işgüzar səfəri təşkil edilmiş, əməkdaşlığın inkişafı və beynəlxalq standartların tətbiqi məsələləri müzakirə olunmuş, komitə üzvləri üçün müvafiq təlim proqramı həyata keçirilmişdir.

## Litva ilə əməkdaşlıq (LTUNADO)



10-11 sentyabr tarixlərində Litva Respublikasında keçirilmiş beynəlxalq tədbir çərçivəsində AMADA ilə Litva Antidopinq Agentliyi (LTUNADO) arasında Anlaşma Memorandumu imzalanmışdır. Memorandum antidopinq sahəsində təcrübə mübadiləsi, birgə təşəbbüslərin həyata keçirilməsi, elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi və institusional potensialın gücləndirilməsi üçün hüquqi çərçivə yaratmışdır.

## "İdmanda hüquq və ədalət: yeni antidopinq çərçivəsi" adlı beynəlxalq konfrans




13 noyabr tarixində Bakı şəhərində "Konstitusiya və Suverenlik İli" çərçivəsində AMADA tərəfindən "İdmanda hüquq və ədalət: yeni antidopinq çərçivəsi" mövzusunda beynəlxalq konfrans təşkil edilmişdir. Konfransda WADA və müxtəlif ölkələrin milli antidopinq təşkilatlarının nümayəndələri, beynəlxalq ekspertlər və tərəfdaş qurumlar iştirak etmişdir. Tədbir beynəlxalq əməkdaşlığın gücləndirilməsi, beynəlxalq standartların tətbiqinin təşviqi və antidopinq sahəsində institusional inkişaf baxımından mühüm əhəmiyyət kəsb etmişdir.















# Ümumi nəticələr və strateji əhəmiyyət

## Təşkilatlar və strukturlar

world anti-doping agency · COUNCIL OF EUROPE / CONSEIL DE L'EUROPE · CAHAMA · T-DO · GEMA

## Tərəfdaş ölkələr

Polşa · Litva · Avstriya

2025-ci il ərzində həyata keçirilmiş beynəlxalq fəaliyyətlər nəticəsində AMADA-nın beynəlxalq antidopinq sistemində institusional mövqeyi əhəmiyyətli dərəcədə möhkəmlənmişdir. Avropa Şurasının T-DO və CAHAMA strukturlarında ardıcıl iştirak, CAHAMA çərçivəsində beynəlxalq mandatın əldə olunması, GEMA təşəbbüsü çərçivəsində fəaliyyət, həmçinin Polşa, Litva və Avstriya ilə əməkdaşlıq mexanizmlərinin qurulması, beynəlxalq konfranslarda iştirak və tədbirlərin təşkili Agentliyin qlobal səviyyədə etibarlı və strateji tərəfdaş kimi nüfuzunu daha da artırmışdır.

Bu fəaliyyət Azərbaycanın qlobal antidopinq sisteminə inteqrasiyasını gücləndirmiş, beynəlxalq standartların tətbiqini təmin etmiş və milli antidopinq sisteminin institusional dayanıqlığının artırılmasına mühüm töhfə vermişdir. AMADA beynəlxalq antidopinq icmasının fəal iştirakçısı və etibarlı tərəfdaşı kimi mövqeyini daha da möhkəmləndirmişdir.





AMADA-nın nümayəndə heyəti 18–19 mart tarixlərində İsveçrənin Lozanna şəhərində keçirilən WADA-nın 2025-ci il simpoziumunda iştirak etmişdir. Tədbirdə təmiz idmanın gələcəyi, idmançı hüquqlarının qorunması, antidopinq sahəsində innovasiyalar, eləcə də 2027-ci il Ümumdünya Antidopinq Məcəlləsi və Beynəlxalq Standartlara nəzərdə tutulan dəyişikliklər müzakirə olunmuşdur.

AMADA nümayəndələri plenar və paralel sessiyalarda fəal iştirak edərək İdmançı Şurasının rolu, kontaminasiya halları, rəqəmsal innovasiyalar, data idarəçiliyi və süni intellektin antidopinq sahəsində tətbiqi kimi mövzular üzrə müzakirələrdə iştirak ediblər.

# 2026-cı ildə Avropa antidopinq siyasətinin nəbzi Azərbaycanda döyünəcək




2026-cı il martın 18-19-da Azərbaycan qlobal antidopinq ictimaiyyətinin diqqət mərkəzinə çevriləcək.

WADA-nın Avropa üzrə Regional Simpoziumuna ev sahibliyinin məhz Azərbaycana həvalə olunması ölkəmizin beynəlxalq idman aləmində artan nüfuzunun, etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın və ardıcıl şəkildə həyata keçirilən uğurlu idman siyasətinin bariz göstəricisidir.*

Bir sıra Avropa ölkələrinin bu mötəbər tədbirə ev sahibliyi etmək üçün namizədliyini irəli sürməsinə baxmayaraq, yekun qərarın Azərbaycanın xeyrinə verilməsi təsadüfi deyil. Bu seçim ölkəmizin idman sahəsində formalaşdırdığı müasir infrastrukturun, şəffaf və prinsipial antidopinq siyasətinin, həmçinin beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkili sahəsində qazandığı zəngin təcrübənin məntiqi nəticəsidir.

Simpozium çərçivəsində Avropanın aparıcı antidopinq qurumları, hökumət nümayəndələri, beynəlxalq idman təşkilatları, idmançılar və onların təmsilçiləri Bakıda bir araya gələrək 2027-ci ildən qüvvəyə minəcək yeni Ümumdünya Antidopinq Məcəlləsi və Beynəlxalq Standartların tətbiqi ilə bağlı mühüm məsələləri müzakirə edəcəklər.

Afrika üzrə Regional Simpozium Misirdə, Asiya və Okeaniya üzrə Çində, Amerika üzrə isə Çilidə təşkil olunacaq.

*2025 - ci il üzrə illik hesabat dərc olunan zaman Bakıda keçirilməsi nəzərdə tutulan Avropa üzrə Regional Simpozium Yaxın Şərq regionunda mövcud münaqişə ilə əlaqədar WADA tərəfindən əvvəlcə təxirə salmış, daha sonra isə ləğv etmişdir.






Şəhid ailələrinin övladlarına kosmos və texnologiya sahəsində biliklər qazandırmaq və onlara unudulmaz təcrübələr yaşatmaq məqsədilə 25-30 noyabr 2025-ci il tarixlərində Türkiyənin GUHEM mərkəzində "Zəfər yolu" qış düşərgəsi təşkil olunub. Layihə "Azərkosmos"un nəzdində fəaliyyət göstərən KOSMİK Akademiyanın təşkilatçılığı, Azərbaycan Milli Antidopinq Agentliyi, Türkiyənin Kosmik Aviasiya Tədqiqat Mərkəzi (GUHEM) və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin dəstəyi ilə həyata keçirilib.

Qış düşərgəsində Azərbaycanın müxtəlif bölgələrindən olan 10 şəhid ailəsinin övladı iştirak edib. Düşərgə çərçivəsində iştirakçılar yüksək texnologiyalar, kosmos, innovasiya və süni intellekt kimi sahələrdə təcrübələr əldə edib və müasir texnoloji alətlərdən istifadə edərək praktiki məşğələlərə qatılıblar. Düşərgədə iştirakçılar kosmos və aviasiya sahələrində biliklər əldə etməklə yanaşı, innovasiya və texnologiya dünyasında öz karyeralarını qurmaq üçün geniş imkanlar qazanıblar.



# Digər




22 avqust 2025-ci il tarixində AMADA-da keçirilən ISO üzrə auditin nəticəsinə dair Fransanın Afnor şirkəti tətəfindən müsbət rəy verilib.

## Yaşıl ofis: elektron sənəd dövriyyəsi

- Elektron kağızsız dopinq nəzarəti sisteminin istifadə edilməsi (MODOC)
- ESD - Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsi
- Tullantıların çeşidlənməsi
- Plastik qabların istifadə edilməməsi və təkrar istehsal məhsullardan istifadə
- Resursların qənaətlə istifadə edilməsi (su, enerji və s.)

## Qayğıya ehtiyacı olan qadın və uşaqlara yardım

Gender bərabərliyi, qadın və uşaq hüquqlarının qorunması məsələsinə hər zaman diqqətlə yanaşan AMADA sosial məsuliyyət tədbirlərini belə xüsusi diqqətdə saxlayır.

STAY
CLEAN

Fransanın AFNOR şirkəti tərəfindən ISO 9001:2015
üzrə 22 avqust 2025-ci il tarixli sertifikasiya

AMADA
STAY CLEAN

AZƏRBAYCAN MİLLİ
ANTİDOPİNQ AGENTLİYİ